RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 83 (8399) CÜMƏ AXŞAMI, 30 aprel 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Xalqını sevən və qoruyan PREZİDENT

## İlham Əliyevin pandemiyanın fəsadları ilə uğurlu mübarizə strategiyası ümummilli dəstəklə müşayiət olunur

**Dünyanı cənginə alan koronavirus pandemiyası 200-dən artıq ölkədə 3,1 milyondan çox insanın bu infeksiyaya tutulmasına səbəb olub. Böyük əksəriyyəti Avropa və ABŞ olmaqla 219 mindən çox insanın həyatına son qoyub. Bəşəriyyətin qlobal probleminə çevrilmiş pandemiya ilə mübarizə məqsədilə demək olar ki, bütün dövlətlərdə müxtəlif tədbirlər həyata keçirilsə də, onların heç də hamısı bu istiqamətdə müsbət nəticələr əldə edə bilmir.**

### Azərbaycanda ciddi fəsadlara imkan verilmədi

Koronavirus Azərbaycandan da yan ötmədi. Fevralın sonunda infeksiyanın ilk nişanəsi ölkəmizdə göründü. Lakin respublikamızda virusun qeydə alınmasından sonra hökumət dərhal çevik reaksiya verdi və vaxtında təxirəsalınmaz addımlar atıldı. Koronavirus xəstəliyinin Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması, profilaktik və təxirəsalınmaz tədbirlərin operativ həyata keçirilməsi məqsədilə Nazirlər Kabinetinin yanında aidiyyəti dövlət orqanlarının və qurumlarının rəhbər şəxslərindən ibarət qərargah yaradıldı. Həmçinin qabaqlayıcı tədbirlərin görülməsi və respublikanın bütün ərazilərində monitorinqin aparılması üçün ekspert qrupları təşkil olundu.

Sonrakı günlərdə qonşu ölkələrlə gediş-gəlişin, məktəblərin, bağçaların, idman zallarının, ticarət və əyləncə mərkəzlərinin fəaliyyətinin dayandırılması, park və ictimai istirahət yerlərinə girişin qadağan olunması, kütləvi tədbirlərin keçirilməsinin təxirə salınması, martın 24-dən xüsusi karantin rejiminin, aprelin 5-dən isə ölkədə hərəkət məhdudiyyətinin tətbiqi kimi qabaqlayıcı və məhdudlaşdırıcı tədbirlər Azərbaycanda koronavirus infeksiyası probleminin bir sıra ölkələrdəki kimi təhlükəli hal almasının qarşısını aldı. Bunun nəticəsidir ki, Azərbaycanda inkişaf etmiş Avropa ölkələrində olduğu kimi, faciəvi tendensiya baş vermədi. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, məhz bu addımların atılması nəticəsində Azərbaycanda vəziyyət nəzarət altındadır: "Hesab edirəm ki, bu günə qədər atılmış bütün addımlar düzgün istiqamətdə atılmış addımlardır. Məhz bu addımların atılması nəticəsində Azərbaycanda vəziyyət nəzarət altındadır. Əgər bu addımlar vaxtında atılmasaydı və biz düşünülmüş strategiya çərçivəsində məhdudlaşdırıcı rejimi mərhələli yollarla sərtləşdirməsəydik, bu gün xəstələrin sayı min yox, bəlkə də 10 min, bəlkə də 20 min ola bilərdi".

### Məqsəd vətəndaşların sağlamlığı və rifahıdır

Koronavirus infeksiyasının ölkəmizdə də görünməsi hər şeydən öncə mühüm bir həqiqətə yeni işıq saldı. Bu həqiqət ondan ibarətdir ki, Azərbaycan xalqı bir daha bu çətin vəziyyətdə yanında məhz öz rəhbərini gördü. Prezident İlham Əliyev bu çətin günlərdə bir daha əsl liderlik nümunəsi ortaya qoydu, koronavirusla mübarizə sahəsində atdığı bütün addımlarla, verdiyi bütün qərarlarla ilk növbədə vətəndaşların sağlamlığının və sosial rifahının təmin olunmasının prioritet olduğunu göstərdi.

Xatırladaq ki, bundan əvvəl də ekstremal hadisələr zamanı ölkə vətəndaşları öz yanlarında, ilk növbədə, Prezident İlham Əliyevi görüblər. Yaxın keçmişimizdə baş verən zəlzələlər, çaylarda baş verən daşqınlar, texnogen qəzalar zamanı vətəndaşlar məhz Prezidentin çevik və operativ reaksiyasının şahidi olublar.

Ardı 3-cü səh.

# Pandemiya təhlükəsi tam sovuşmayıb

## Əhalidə arxayınçılıq yaranması bu bəlanın yenidən alovlanmasına təkan verə bilər

**Koronavirus pandemiyasına qarşı mübarizədə Azərbaycan bu gün dünya miqyasında uğur qazanan ölkələr sırasında, liderlər cərgəsində yer alır. Vaxtında atılan addımlar, xüsusən karantin rejiminin tətbiqi pandemiyanın Azərbaycanda genişlənməsinin qarşısının uğurla alınmasında müstəsna rol oynayır.**

Görülən tədbirlər nəticəsində bu gün Azərbaycan koronavirusa yoluxanların sayının ən az olduğu ölkələr sırasındadır. Təbii ki, bu fonda karantin rejiminin tədricən yumşaldılması da aktuallaşır və aprelin 27-dən bu istiqamətdə addımlar atılıb. Lakin bu heç də arxayınçılığa yol açmamalı və virusun tam aradan qaldırılmasına qədər vətəndaşlar ona qarşı əvvəlki qaydada həmrəylik nümayiş etdirməlidirlər. Xüsusən də, ehtiyat tədbirlərinin gözlənilməsi bu mənada olduqca vacib və zəruridir.

Unutmayaq ki, koronavirus xəstəliyi uzunmüddətli prosesdir və bu səbəbdən mövcud qaydalara riayət olunması və zəruri profilaktik tədbirlərin davam etdirilməsi vacibdir. Xüsusi karantin rejiminin yumşaldılması ilə əlaqədar əhalidə təhlükənin sovuşması əhvali-ruhiyyəsi yaranmamalıdır. Qeyd edək ki, xüsusi karantin rejimindəki mövcud məhdudiyyətlərin sanitar-epidemioloji şəraitdən asılı olaraq mərhələli yumşaldılması zəruridir. Amma epidemioloji vəziyyət tələb edərsə, yəni xəstəliyin dinamikasında artım olarsa, karantin rejimi yenidən sərtləşdiriləcək, müvafiq məhdudiyyətlər yenidən tətbiq olunacaqdır.

Bu gün faktdır ki, dünyanın ən inkişaf etmiş, səhiyyəsi və iqtisadiyyatı ilə illərdir nümunə olaraq təqdim edilən ölkələrdə pandemiya əsl fəlakət yaradıb, yoluxanların, ölənlərin sayı həndəsi silsilə ilə artır. Lakin Azərbaycan koronavirusla mübarizədə həmin inkişaf etmiş ölkələrin bacarmadığını etdi, həm də hökumət vətəndaşlarını pandemiyanın kütləvi yoluxma dalğasından xilas etdi. Azərbaycan dünyanın ən aparıcı ölkələrinin bacarmadığını etdi.

Ardı 3-cü səh.

# "Siz hər zaman xalq sevgisinə layiqsiniz!"

**Bu günlərdə ölkə əhalisinin əksəriyyətinin Azərbaycan Prezidentinin ünvanına yazdığı təşəkkür dolu məktublar bir daha təsdiqləyir ki, hər iki tərəfin bir-birinə məhəbbəti yetərincədir.**

Dünyanı bürüyən koronavirus pandemiyasının ölkəmizdə "ayaq açıb" yayılmasının qarşısının alınmasında dövlət başçısının təşəbbüsü və qəbul etdiyi təxirəsalınmaz qərarlar artıq öz müsbət nəticəsini göstərir. Virusa yoluxmalar gündən-günə azalması, sağalaraq ailəsinə yenidən qovuşan xəstələrin sayının artması müşahidə olunmaqdadır. Nazirlər Kabineti yanında yaradılan Operativ Qərargahın məlumatlarında təhlükədən yavaş-yavaş uzaqlaşmağımızı təsdiqləyən faktlar da az deyil.

Məhz bundan yaranan sevinci xalqımız daim onun qayğısını çəkən, vətəndaşların həyatının daha da firavan olmasına çalışan dövlət başçısına minnətdarlıq dolu məktubları vasitəsilə bölüşür.

Məktub müəlliflərinin əksəriyyətinin gənclərdən ibarət olması da təsadüfi deyildir. Azərbaycan Prezidenti daim öz çıxışlarında gənclərə güvəndiyini, onların daim yanında olduğunu bildirir. Yeni nəslin milli-mənəvi ruhda tərbiyə olunması, onların idarəetmə strukturlarında məsul vəzifələrə irəli çəkilməsi, təbii ki, cavabsız qala bilməz. Buna görə də gənclər koronavirus pandemiyasının yayılmasının qarşısının alınması üçün tətbiq edilən karantin rejimində bir daha Prezidentin çağırışlarına səs verərək, könüllülük prinsipi əsasında sosial yardımların göstərilməsində var qüvvələri ilə çalışır, onlara olan inam və etibarı əməli fəaliyyətlərində təsdiqləyirlər.

Ardı 2-ci səh.

# Suma ÇAKRABARTİ: "İlham Əliyev qətiyyətli və çevik liderdir"

Tarixin mürəkkəb və çətin dönəmlərində şəxsiyyətin rolu danılmazdır. Çünki yalnız nadir simalar maneələri aşmaq, çətinlikləri arxada qoymaq və inamla qələbəyə nail olmaq gücünə qadirdirlər.

Məhz bu baxımdan aprelin 28-də Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) prezidentinin təşəbbüsü ilə bu təşkilatın geniş tərkibdə Prezident İlham Əliyevlə keçirdiyi videokonfransda Azərbaycan liderinin dünya miqyasında artan nüfuzu və gücü əyani olaraq bir daha təsdiqini tapmışdır.

Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Suma Çakrabarti videokonfransda bəşəriyyətin qəribə və qeyri-adi tarixi dönəmə qədəm qoyduğunu, Azərbaycan Prezidentinin belə mürəkkəb zamanda yaranan gözlənilməz böhranın öhdəsindən qətiyyətlə gəldiyini, qısa müddətdə ən təsirli tədbirləri sürətlə həyata keçirdiyini etiraf etmişdir.

Həqiqətən də koronavirus pandemiyası ildırım sürəti ilə dünyaya yayılanda biz onun şahidi olduq ki, bir sıra dövlətlər bu bəlanın qarşısında aciz qaldılar, bəzi liderlər isə qətiyyətli və düzgün qərarlar verməkdə çətinlik çəkdilər, gözləmə mövqeyində dayandılar və nəticədə misilsiz problemlərlə üzləşdilər. Azərbaycan Prezidenti isə ilk gündən reallıqları dəyərləndirməyi bacardı, gələcək təhlükələrin konturlarını dəqiq təyin etdi və böhranı idarə etmək gücünə qadir olan komanda yaratdı. Virusun gəldiyi ünvan dəqiqləşdirilən kimi qonşu dövlətlərlə birlikdə sərhədlərin bağlanmasına qərar verildi. Azərbaycan digər ölkələri qabaqlamaqla səhiyyə sisteminin hazırlanması və düzgün idarəçiliyin qurulması üçün əlavə vaxt qazandı.

Ardı 3-cü səh.



# Bank sektorundan pandemiyadan zərər çəkən hüquqi və fiziki şəxslərə dəstək

## Mərkəzi Bankın qəbul etdiyi qərar iqtisadiyyatın davamlı inkişafına və əhalinin sosial müdafiəsinə yönəldilib

Koronavirus pandemiyasının yayıldığı bütün ölkələrin iqtisadiyyatına zərbə vurduğu şəksizdir. Buna görə də Azərbaycan dövləti dərhal qabaqlayıcı tədbirlər görmüş, pandemiyanın iqtisadiyyatın ayrı-ayrı sahələrinə vurduğu ziyanın minimum olması üçün genişmiqyaslı işlər planlaşdırmışdır.

Ardı 7-ci səh.

# Ermənilər həyəcan təbili çalırlar:

## "Yerevan Qarabağ məsələsində Azərbaycana müqavimət imkanını itirib"

### Regiondakı geosiyasi durum Ermənistanın işğal siyasətini dalana dirəyib

Keçdiyimiz günlərdə Rusiyanın xarici işlər naziri Sergey Lavrov Qorçakov Fondunun təşkil etdiyi onlayn "dəyirmi masa"da Dağlıq Qarabağ münaqişəsinin nizama salınması haqda maraqlı açıqlamalar vermişdi. Həmin çıxışda qeyd etmişdi ki, hazırda danışıqlar masasında Dağlıq Qarabağ münaqişəsinin mərhələli həllini təklif edən bir sənəd var.

O, açıqlamasında BMT Təhlükəsizlik Şurasının erməni hərbi birləşmələrinin Azərbaycan torpaqlarından çıxarılmasını tələb edən qətnamələrinə toxunmuş və bildirmişdi ki, Madrid sazişləri, Rusiya tərəfinin 2010-2011-ci illərdə hazırladığı sənədlər, yəni "Kazan prinsiplər"i və keçən ilin aprelində Moskvada həmsədrlərin iştirakı ilə keçirilən Azərbaycan, Ermənistan və Rusiya xarici işlər nazirlərinin görüşündən sonra açıqlanan, hazırda fəal müzakirə olunan layihələr var: "Bütün bu sənədlər mərhələli yanaşma əsasında nizamlanmaya doğru irəliləməyi nəzərdə tutur, ilk mərhələdə ən aktual problemlərin həllini, Dağlıq Qarabağ ətrafındakı bir sıra rayonların azad edilməsini, nəqliyyat, iqtisadi və digər əlaqələrin blokadasının aradan qaldırılmasını ehtiva edir".

Ermənistan mediası və ekspertləri bildirirlər ki, Lavrovun bu bəyanatı Yerevan üçün yaxşı heç nə vəd etmir. Erməni şərhçi Tevos Arşakyan yazır ki, Lavrov münaqişənin nizama salınmasında niyə "mərhələli həll" variantından danışır, Azərbaycanın ərazi bütövlüyünü və BMT TŞ-nin qətnamələrini yada salır?

Ardı 7-ci səh.

- Özünü, doğmalarını və dostlarını qorumaq:
- Koronavirusa qalib gəlmək üçün

EVDƏ QAL!

Biz birlikdə güclüyük!

# Vətəndaşlar dövlət başçısına minnətdarlıq edirlər

Əvvəli 1-ci səh.



# "Siz hər zaman xalq sevgisinə layiqsiniz!"

### "Dövlətə sevgini, sözə sadiqliyi, birlik yaratmağı Sizdən öyrənmişik"

"Mən bir gənc olaraq çox sevinirəm ki, Azərbaycanımıza Sizin kimi uzaqgörən siyasi xadim rəhbərlik edir. Gənclərə göstərdiyiniz diqqət və qayğınız bizi daha da həvəsləndirir "

Tovuz rayonundan **Aynur Bağırovanın** məktubunda daha sonra deyilir: "Möhtərəm Prezidentimiz! Bizə inanıb, dəstəyinizi əsirgəməyib, bu şəraiti yaratdığınız üçün Sizə təşəkkür edirik. Sizin rəhbərlik etdiyiniz ölkədə yeni-yeni gənc kadrlar yetişməkdədir. Bu isə Sizin gənclərə olan inamınızın onlar tərəfindən doğruldulması deməkdir . Dövlətinə olan sevgini, sadiqliyi, birlik yaratmağı Sizdən görüb öyrənmişik. Xalqın sağlamlığını düşünərək etdiyiniz yardım layihələri biz gəncləri daha da qürurlandırır. Bir çox dövlət başçılarına nümunəsiniz. Nəinki biz, hətta xarici ölkə vətəndaşları da Sizi ürəkdən alqışlayır".

Tovuzlu gənclərin ümumi fikrini vurğulayan A.Bağırova daha sonra yazır: "Bir çox ölkələri çənginə alan COVID-19 pandemiyası Azərbaycandan da yan keçmədi. Sizin bu virusun yayılmaması üçün tətbiq edilməsini vacib saydığınız qabaqlayıcı tədbirlər artıq bu günlərdə öz bəhrəsini verməkdədir. Az itkilərlə qalib gələcəyimizə inanıram. COVID-19 pandemiyası belə Sizin gücünüzə qalib gələ bilməz! Dünyanın inkişaf etmiş ölkələrində yaranmış acınacaqlı vəziyyətin bizdə yaşanmaması Sizin birbaşa fəaliyyətinizlə bağlıdır. Bu pandemiya ilə əlaqədar həkimlərimizə və polislərimizə göstərdiyiniz dəstək də Azərbaycan xalqının diqqətindədir.

Bu çətin dövrdə Sizin və Mehriban xanım Əliyevanın öz əməkhaqqınızı pandemiya ilə mübarizə tədbirləri üçün yaradılmış fonda bağışlamağınız, minlərlə işsiz ailələr üçün birdəfəlik yardımların göstərilməsi ilə əlaqədar imzaladığınız sərəncamlar çox təqdirəlayiqdir. Bununla Siz ölkə əhalisinin qayğısına qaldığınızı bir daha sübut etdiniz. Bu xalq Sizə və Mehriban xanıma çox güvənir. Biz Azərbaycan gəncləri hər zaman Sizinləyik və Sizə daim minnətdarıq. Allah Sizi və ailənizi qorusun".

### "Xalqımızın qürur və güvən mənbəyisiniz!"

Bakı Dövlət Universitetinin Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin III kurs tələbəsi **Mirməhəmməd Hüseynovun** dövlət başçısının ünvanına yazdığı məktubu da Azərbaycan gəncliyinin ümumi fikrini ifadə edir. Müəllif yazır: "Azərbaycan gəncləri məkanından asılı olmayaraq, möhtərəm Prezident, daim Sizin haqqınızda, rəhbər kimi fəaliyyətlərinizdən danışmaqdan hər zaman qürur duyur.

Azərbaycan xalqının rəhbəri olmağınızla yanaşı, Siz bu xalqın qəhrəmanı və böyük sərkərdəsisiniz! Sizin sayənizdədir ki, son zamanlar gənclər artıq hər bir sahədə üstünlük təşkil edir və Sizə güvənərək fərəhlə çalışırlar. Siz həm xalqımızın, həm də gənclərin könlündə taxt qurmusunuz. Xalqımızın qürur və güvən mənbəyisiniz! Sizinlə başlanan işlər, proseslər nəinki regionumuzda, hətta bütün dünyada örnək göstərilir. Ölkəmizdə baş verən bütün heyrətamiz və nümunəvi işlərdə daim Sizin imzanızı görmək bizim üçün böyük fəxrdir.

Son zamanlar bütün dünyanı həyəcan siqnalı çalmağa məcbur edən COVID-19 pandemiyası ilə əlaqədar ölkəmizdə görülən güvənli, qabaqlayıcı tədbirlər Sizin sayənizdə bütün dünya üçün nümunə hesab olunur. Hətta ən qabaqcıl, inkişaf etmiş ölkələr belə hər mövzuda olduğu kimi, bu problemdə də Sizin qabaqcıl siyasətinizdən örnək götürdüklərini və öz təşəkkürlərini bildiriblər.

Cənab Prezident! Ölkəmizdə bu çətin günlərin ən sağlam və zərərsiz şəkildə keçməsi üçün göstərdiyiniz tədbirlər əvəzolunmazdır. Azərbaycan xalqının Sizin kimi rəhbəri olması ilə fəxr etməsi danılmazdır. Həmçinin Sizin göstərişinizlə imkansız ailələrin birdəfəlik yardımla təmin olunması çox təqdirəlayiq və nümunəvi hərəkətlərdən biridir. Əlavə olaraq bunu bildirmək istərdim ki, bu çətin günlərdə Sizin belə humanist fəaliyyətiniz təkcə xalqımıza deyil, həmçinin virusdan əziyyət çəkən digər dünya ölkələrinə də göstərdiyiniz xoş münasibət və tapşırığınızla edilən yardımlar bütün dünyada rəğbətlə qarşılanmışdır. Allah Sizin özünüzü və ailənizi qorusun!"

### "Evdə qal, həyatları xilas et!" çağırışına qoşulmuşuq"

**Bəylər Natiq oğlu Əzimov** paytaxt Bakının Nərimanov rayonunun sakinidir. Göndərdiyi məktubun bəzi məqamları ilə tanış olaq. Məktub müəllifi Azərbaycan Prezidentinə minnətdarlıq dolu ürək sözlərini belə ifadə edir: "Möhtərəm cənab Prezident! Son günlər bəşəriyyətin bəlasına çevrilən COVID-19 infeksiyasının Azərbaycanda yayılmasının qarşısının alınması, vətəndaşların sağlamlığının qorunması üçün həyata keçirilən sosial təcrid tədbirlərinə dəstək olaraq həmrəylik nümayiş etdirməyiniz xalqımız tərəfindən yüksək qiymətləndirilir. Pandemiyaya qarşı mübarizə çərçivəsində Sizin rəhbərliyinizlə respublikamızda qabaqlayıcı tədbirlər görülür, əhalinin sağlamlığının və təhlükəsizliyinin qorunması məqsədilə zəruri profilaktik işlər həyata keçirilir.

Ümumdünya Səhiyyə Təşkilatının koronavirus təhlükəsi ilə əlaqədar "Evdə qal, həyatları xilas et!" çağırışı ilə yaşı 65-dən yuxarı insanlara qayğı və diqqətin göstərilməsi təşəbbüsünə qoşulan Azərbaycan gəncləri də Sizin atdığınız qətiyyətli addımları, xalqımıza göstərdiyiniz diqqət və qayğını dəstəkləyirlər. Tibb işçilərimiz istər xəstəxanalarda, istərsə də karantində olan və müalicə alan vətəndaşlarımızla xüsusi maraqlanır, onların tezliklə sağalıb ailələrinin yanına qayıtmaları üçün əllərindən gələni edirlər.

Cənab Prezident, əminik ki, "Biz birlikdə güclüyük!" çağırışınızla koronavirusa tez bir zamanda qalib gələcəyik. Mən gənclər adından Sizə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlığımı bildirir, müstəqil Azərbaycanımızın tərəqqisi naminə fədakar fəaliyyətinizdə uğurlar arzu edirəm".

Şəmkir rayonu Dağ Cəyir kəndində müvəqqəti məskunlaşan **Müslüm Aslan oğlu Ağaliyev** bu çətin zamanlarda xalqın yanında olduğuna, koronavirusla mübarizədə çox önəmli qabaqlayıcı tədbirlər həyata keçirdiyinə görə dövlət başçısı İlham Əliyevə ailəsi və yaxın qohumları, doğmaları adından yazdığı təşəkkür məktubunda deyir: "Möhtərəm cənab Prezident! Sizinlə çiyin-çiyinə çalışan, kiçiklərə sevgi, böyüklərə hörmətlə yanaşmaqla hər birimizə nümunə olan dəyərli Mehriban xanıma, öz pozitivliyi ilə gənclərimizə dəstək olan övladlarınıza cansağlığı arzu edirəm.

Ümummilli Lider öz ideyaları ilə böyük bir siyasi məktəb qoyub getmişdir. Təbii ki, onun məktəbini keçmiş bir insan, xalqına sədaqətlə xidmət edən bir Prezident Sizin kimi olmalıdır. Biz Sizinlə fəxr edirik. Siz ölkəmizi çox yüksək arenalarda layiqincə təmsil edir, atdığınız hər addımla Azərbaycanın adını daha yüksəklərə qaldırırsınız. Tutduğunuz şərəfli yolda Sizə uğurlar, xalqımıza xoşbəxt, firavan gələcək arzu edirik. Biz Sizinləyik!

Cənab Prezidentimiz, ən böyük diləyim işğal altında olan torpaqlarımızın tezliklə azad olunmasıdır. Ata ocağımızı, ana yurdumuzu azad görmək istəyirik. Ulu Tanrıdan hər gün bunu diləyirik. Bu diləyimizi yerinə yetirməkdə Tanrı Sizə kömək olsun, amin!"

"Azərbaycanın əldə etdiyi uğurların əsas təminatçısı insan kapitalına, xüsusilə də yüksək peşə vərdişlərinə və əqli potensiala malik gənclərə göstərilən diqqət və dəstəkdir. Çünki gənclik daim axtarışda olan, yeniliyi sevən, ideyalarla zəngin bir qüvvədir". Salyan şəhərindən məktub göndərən **Cavid Məmmədhəsən oğlu Səmədli** də fikirlərini belə başlayıb. Məktubda daha sonra deyilir: "Bu meyarları nəzərə alaraq ölkəmizin qüdrətli dövlətə çevrilməsi yolunda gənclərə böyük meydan verilməsinin daim tərəfdarı olmuş, onlara bunun üçün hər cür şərait yaratmış dövlət başçısı kimi əbədi sevgiyə layiqsiniz, əziz Prezidentimiz! Gənclərimiz də bu imkanlardan yararlanır, cəmiyyətin inkişafı prosesinin avanqardına çevrilirlər. Dövlətimizin koronavirusla mübarizə apardığı bu çətin günlərdə də gənclər üzərlərinə düşən məsuliyyəti dərk edir, xüsusi karantin rejimi çərçivəsində qoyulan məhdudiyyət tədbirlərinə ciddi əməl edirlər.

Siz də öz növbənizdə belə bir vaxtda xalqımıza arxa-dayaq oldunuz, təhlükəsizliyimiz üçün əlinizdən gələni əsirgəmədiniz. Xalqımıza göstərdiyiniz dəstəyə və qayğıya görə Sizə və Mehriban xanıma sonsuz təşəkkürümüzü bildiririk".

### "Sizin rəhbərliyinizlə bu sınaqdan da üzüağ çıxacağıq"

**Zaur Mikayıl oğlu Hüseynovun** Lənkəran rayonunun Şiləvar kəndindən yazdığı məktubda isə oxuyuruq: "Bu gün koronavirus infeksiyasına qarşı mübarizə çərçivəsində Azərbaycanda həyata keçirilən operativ mübarizə tədbirləri dövlətin öz vətəndaşlarına verdiyi dəyərin bariz nümunəsidir. Dünya ölkələrinin koronavirus pandemiyasının yaratdığı böyük çətinliklərdən əziyyət çəkdikləri bir vaxtda Azərbaycan xalqının sağlamlığının qorunması, rifahının yaxşılaşdırılması istiqamətində Sizin rəhbərliyinizlə görülən işlər, xüsusilə də genişmiqyaslı sosial dəstək tədbirləri nümunəvi xarakter daşıyır. Koronavirusla Mübarizəyə Dəstək Fondunun təsis olunması, yeni xəstəxanaların açılışı, modul tipli 6 xəstəxananın tikintisinə başlanılması Azərbaycanın bütün dünyanı təhdid edən bəladan az zərərlə çıxacağına əminlik yaradır.

Yürüdülən müdrik siyasət, görülən düzgün mübarizə tədbirləri dünyanın aparıcı dövlətləri tərəfindən təqdir edilməkdədir. Ölkəmizin hər bir vətəndaşına örnək sayılacaq fəaliyyətinizə görə Fövqəladə Hallar Nazirliyinin Cənub Regional Mərkəzi İşçilərinin Həmkarlar İttifaqının üzvləri adından Sizə təşəkkür edir və işlərinizdə uğurlar arzulayırıq. Biz əminik ki, Sizin rəhbərliyinizlə bu sınaqdan da üzüağ çıxacağıq".

Cəbrayıl rayonunun Hovuslu kəndində dünyaya göz açan **Köçəri Tumas oğlu Tumasov** yazır: "Möhtərəm və əziz Prezidentimiz, Ali Baş Komandan cənab İlham Əliyev, Sizin "Mən hər bir azərbaycanlının Prezidenti olacağam" sözləriniz 17 il ərzində sürətlə inkişaf edən dövlətimizin bütün istiqamətlər üzrə müasirləşməsindəki real fəaliyyətinizlə öz təsdiqini tapıb. COVID-19 pandemiyası dövründə bir daha bütün Azərbaycan vətəndaşlarına açıq-aydın bəlli oldu ki, Siz nəinki hər bir azərbaycanlının Prezidenti, həmçinin hər bir azərbaycanlı ailəsinin doğması, əzizi, dayağı, dəstəyi, güvən yeri, istinadgahısınız. Cənab Prezident, hər zaman xalqımıza dayaq olduğunuz üçün Sizə həm öz adımdan, həm də ailəmizin adından təşəkkürümü bildirirəm. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin siyasi varisi olaraq Siz Ulu Öndərin daxili və xarici siyasət strategiyasını layiqincə davam etdirirsiniz. Bu şərəfli yolda, ölkəmizin uğurlu gələcəyi naminə gordüyünüz bütün işlərdə Sizə müvəffəqiyyətlər arzulayırıq. Var olasınız ki, Azərbaycanımızı daha yüksəklərə ucaldasınız! Var olasınız ki, Ali Baş Komandan kimi Sizin rəhbərliyinizlə Qarabağımızda bayrağımızı dalğalandıraq. Dünyamıza, ölkəmizə, Sizə və doğmalarınıza sağlıq və uğurlar diləyirik".

### Prezident-xalq birliyi sarsılmazdır!

**Elnur Səməd oğlu Həmidovun** məktubunda yazılır: "Hörmətli Cənab Prezident! Əvvəla, Sizi salamlayır və bu məktubumla dərin təşəkkürümü bildirirəm. Dünyanı bürüyən pandemiya dövründə Sizin və Mehriban xanım Əliyevanın həmişəki kimi xalqın yanında olmağınız məni də qürurlandırdı".

Məktubda daha sonra deyilir: "Ulu Öndərimiz Heydər Əliyev kimi, məhz Sizin də düşünülmüş iqtisadi, siyasi, sosial addımlarınız bu gün ölkəmizdə firavan həyat sürməyimizə imkan yaradıb. Hazırda Sizin tapşırığınıza əsasən dövlətin bütün imkanları xalqımızı bu bəladan qorumağa və yarana biləcək sosial problemlərin həllinə yönəlib. Bu gün bir daha gördük ki, Prezident-xalq vəhdəti sarsılmazdır.

Cənab Prezident, əminik ki, Sizin qətiyyətli addımlarınız, xalqımıza qayğınız sayəsində bu sınaqdan da üzüağ çıxacağıq. Gördüyünüz bütün işlərə görə çox sağ olun! Bütün ailəmiz adından Sizə minnətdarıq. Yaxşı ki, varsınız. Nə yaxşı ki, bu ölkənin Prezidenti Sizsiniz. Allah Sizi və ailənizi qorusun".

**Elton Həmdulla oğlu Məmmədov** Göyçay rayonunun Bığır kənd sakinidir. Dövlət başçısına yazır ki, cənab Prezident, Siz Ulu Öndər Heydər Əliyevin uğurlu siyasətini əzmlə, böyük iradə ilə davam etdirərək, müstəqil Azərbaycanımızı gücləndirirsiniz: "Ölkəmizin gələcəyinə həssas yanaşmağınız sayəsində pandemiyanın Azərbaycanda geniş yayılmasının qarşısını almaq üçün vaxtında həyata keçirilən qabaqlayıcı tədbirlər artıq öz müsbət təsirini göstərməkdədir. Sizin siyasətinizin əsasında Azərbaycan xalqı və onun rifahı dayanır. Sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil haqqı xərclərinin ödənilməsi ilə bağlı verilmiş qərar biz valideynlər tərəfindən çox yüksək qiymətləndirilir.

Cənab Prezident, pandemiya ilə mübarizədə göstərdiyiniz fədakarlıq tarixə qızıl hərflərlə yazılacaq. Bizimlə yaxından maraqlandığınız, bizə qayğı göstərdiyiniz və hər bir zaman olduğu kimi, yenə də vətəndaşlarımızın rifahı naminə qərarlar verdiyiniz üçün Sizə dərin minnətdarlığımızı bildiririk".

Biləsuvar rayonunun Ağayrı kənd sakinlərindən biri - **Böyükağa Vəkil oğlu Əliyevin** məktubu da səmimiyyətdən irəli gələn fikirləri özündə əks etdirir. Məktubda deyilir: "Hörmətli Prezident! Hər şeydən öncə belə çətin dövrdə, bu pandemiya şəraitində biz vətəndaşların qayğısına qaldığınıza görə Sizə ailəm adından minnətdarlıq edirəm.

Cənab Prezident! Siz öz humanistliyinizlə bir daha sübut etdiniz ki, dövlət həmişə vətəndaşının yanındadır. Biz vətəndaşlar, xüsusən də mən öz ailəmlə həmişə Sizi dəstəkləmişik, bu gün də, sabah da Sizinləyik. Biz görürük ki, Ulu Öndər Heydər Əliyev - o dahi şəxsiyyət əbədiyyətə qovuşsa da, onun pak ruhu daim Azərbaycan xalqı ilədir.

Bir daha Sizə ailəm adından təşəkkür edirəm, sağ olun! Allah Sizin kölgənizi Azərbaycan xalqının başı üstündən əskik etməsin".

### "Tükənməz enerjinizlə, böyük sevginizlə xalqımıza dayaq oldunuz"

**Şəfa Tarverdiyevanın** İsmayıllı rayonundan göndərdiyi məktubdan bəzi sətirlər: "Biz dünyanı çənginə alan koronavirus adlı bəşəri bəlanın çətin dövrünü yaşayırıq. Amma buna baxmayaraq bu çətinliyin bir işığı var ki, o da, cənab Prezident, Sizinlə bağlıdır. Karantinin ilk günlərində insanlarda bir çaşqınlıq vardı. Amma Sizin uzaqgörən və məqsədyönlü qərarlarınız, atdığınız qətiyyətli addımlar biz sadə vətəndaşları düşdüyümüz təşvişdən qurtardı və bu bəladan xilas edəcəyinizə əminlik yaratdı. Siz ilk gündən hamımızın yanında oldunuz, tükənməz enerjinizlə, insanlarımıza böyük sevginizlə dayaq oldunuz - Mehriban xanımla birlikdə xalqı ruhdan düşməyə qoymadınız. Əlinizdən gələni, mümkün olan və olmayan hər şeyi etdiniz. Həyata keçirdiyiniz qabaqlayıcı tədbirlər nəticəsində digər inkişaf etmiş ölkələrlə müqayisədə biz daha az itki veririk. Bizdə bu çətin sınaqlardan sonra həyat eşqi, ümid işığı yaranır. Biz bu ümid işığını indi həyatımızda görürük. Sizin ölkəmizin rifahı yolunda həyata keçirdiyiniz gözəl əməllərdən ruhlanır, Sizinlə fəxr edirik, cənab Prezident! Sizi dəstəkləyir və hər zaman yanınızda olduğumuzu bildiririk. Sizə möhkəm cansağlığı arzulayırıq!"

**Qumru İsmayılova** isə gənclik şəhəri Sumqayıtdan yazır: "Cənab Prezident, mən bir Azərbaycan Respublikasının vətəndaşı olaraq Sizin yürütdüyünüz siyasəti hər zaman dəstəkləyirəm. Hər kəsə məlum olan bu karantin rejimində gördüyünüz tədbirlər dünya dövlətləri arasında Sizi uzaqgörən dövlət başçısı kimi bir daha təsdiqlədi. Biz hər zaman Sizin yanınızdayıq. Sizə inam və etibarımız böyükdür. Siz və ailəniz öz xeyirxah, insansevər əməlləriniz ilə həmişə öndəsiniz və bizlərə örnəksiniz. Müqəddəs Ramazan ayının gəlişi ilə Sizi və ailənizi səmimi-qəlbdən təbrik edirəm. Uca Yaradan bütün müsibətləri Vətənimizin, xalqımızın başı üstündən aparsın. Sizə və ailənizə cansağlığı, uzun ömür bəxş etsin. Amin".

Bu da Lerik rayonunun Küsəkəran kəndindən **Əfqan Gülağa oğlu Vəlizadənin** məktubu: yığcam və məzmunca dərin. Müəllif vaxtın, zamanın sürətlə keçməsini nəzərə alıb məktubunu yığcam yazdığını qeyd edir. Məktubda daha sonra qeyd edilir ki, son vaxtlar dünya gündəminin əsas mövzularından biri də koronavirus epidemiyasıdır. Dünya ölkələrində bu xəstəlikdən hər gün yüzlərlə insan öz həyatını itirir: "Möhtərəm Prezidentimiz, Sizin uzaqgörən siyasətinizin, alicənablığınızın nəticəsində ölkəmizin bu xəstəlikdən çox az itkilərlə çıxacağına tam əminlik yaranıb. Siz bütün qüvvələri qısa vaxt ərzində səfərbər etdiniz. Biz ölkə vətəndaşları da öz həmrəyliyimizlə, birliyimizlə qoyulan qaydalara və karantinin tələblərinə əməl edirik. Biz bir daha əmin olduq ki, ölkəmizin və xalqımızın taleyi etibarlı əllərdədir. Uca Tanrıya şükürlər olsun ki, Sizin kimi Prezidentimiz var. Biz Sizinlə fəxr edirik. Uca Tanrı Sizi və ailənizi qorusun. Yaşasın Azərbaycan! Biz birlikdə güclüyük!"

***Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"***

# Çətin günün dayağı

Builki yaz Lerikə gec gəlib. Quzeylərin qarı hələ əriməyib, havaların şaxı sınmayıb. Dağların başını duman alır, leysan yağışlar yağır, gecələr kəndlərə qar düşür. Təbiətin şıltaqlığı əkinçini tələsdirir.

Torpaq becərilir, toxum səpilir, tərəvəz şitilləri sahələrə köçürülür. Qoyunçuların da işi çoxalıb. Yun qırxımına, ot-ələf tədarükünə, yaylaqlara köçməyə hazırlıq görürlər. Bir sözlə, dağlar diyarında hər kəs işində, gücündədir.

Belə qayğılı günlərdə Yer üzünü bürüyən koronavirus pandemiyasına qarşı mübarizəyə leriklilər də fəal qoşulmuşlar. Respublika hökuməti tərəfindən müəyyən edilmiş karantin rejimində tədbirlərə dürüst əməl edir, evdə qalıb özlərini, yaxınlarını, ətrafdakıları bu bəladan qoruyurlar. Həyata keçirilən operativ tədbirlər nəticəsində COVID-19 yayılandan bəri rayonda bir nəfərin də olsun virusa yoluxduğu qeydə alınmamışdır.

Prezident İlham Əliyevin əhalinin təhlükəsizliyi üçün həyata keçirdiyi qabaqlayıcı tədbirlər ağsaqqallar, ziyalılar, sadə zəhmət adamları tərəfindən yüksək qiymətləndirilir. Dövlət başçısı bu çətin günlərdə əsl liderlik nümunəsini nümayiş etdirdi və həmişəki kimi, xalqın yanındadır. Prezident "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır" deməklə hər birimizə dayaq oldu.

Ölkə başçısının qayğısı Lerikdə hər bir ailədə hiss olunur. Keçən həftə 100-ə yaxın aztəminatlı ailə dövlətin ayırdığı vəsait hesabına müvəqqəti işlə təmin olunmuşdur. İşsiz kimi qeydiyyatda olan vətəndaşlara 190 manat müavinət poçt şöbələri tərəfindən növbə ilə ödənilir və bu xeyirxah missiya davam etdirilir. Heydər Əliyev Fondu tərəfindən göndərilmiş ərzaq rayon qərargahının nəzarəti ilə könüllülər tərəfindən aztəminatlı ailələrə çatdırılır. Bu xeyirxahlığa görə ahıl atalar və analar Mehriban xanım Əliyevaya təşəkkürlərini bildirirlər. Aksiyaya Lerikin bir neçə idarə və müəssisəsi də qoşulmuşdur.

Rayondakı iş adamları, ziyalılar İlham Əliyevin təşəbbüsü ilə yaradılmış Koronavirusla Mübarizəyə Dəstək Fonduna 50 min manat vəsait köçürmüşlər. Bu missiya davam etdirilir.

Həyata keçirilən çevik və sistemli tədbirlər sayəsində Azərbaycanda yoluxma zənciri qırılır. Biz Prezident İlham Əliyevin müdrik qərarları ilə ölkəmizin pandemiyadan minimum zərərlə qurtaracağına tam əminik.

Buna görə Prezidentimizə minnətdarıq.

***Həmzə VƏLİMƏMMƏDOV, Lerik Rayon Ağsaqqallar Şurasının sədri***

# Suma ÇAKRABARTİ: "İlham Əliyev qətiyyətli və çevik liderdir"

Əvvəli 1-ci səh.



Ümumdünya Səhiyyə Təşkilatı öz bəyanatında Azərbaycanda mart ayından həyata keçirilən məhdudlaşdırıcı tədbirləri koronavirusla mübarizə sahəsində müsbət nümunə kimi göstərmişdir. Prezident İlham Əliyev videokonfransda buna necə nail olunduğunu belə diqqətə çatdırdı: "...bizim iki variantımız var idi. Birinci variant insanların həyatını və sağlamlığını qorumaq, ikinci variant isə iqtisadiyyatın xilas edilməsi prioriteti idi. Bu səbəbdən ilk gündən bizim seçimimiz insanların həyatının qorunması oldu. Gördüyümüz bütün işlərin məqsədi budur və bu istiqamətdə səylərimizi tam səfərbər etmişik".

Söz düşmüşkən qeyd edək ki, ölkəmizdə bugünədək 130 mindən artıq test keçirilmiş, 18 laboratoriya yaradılmış, 575 çarpayılıq yeni xəstəxana istifadəyə verilmiş, modul tipli 6 xəstəxananın tikintisinə başlanmışdır. Dünyanın inkişaf etmiş ölkələrində xəstəxanalarda yer tapılmayanda Azərbaycan bu məqsədlər üçün yubanmadan əlavə olaraq 4-5 ulduzlu mehmanxanaları ayırmışdır.

Koronavirus pandemiyasından zərər çəkmiş özəl sektor da dövlətin diqqət mərkəzindədir. Bu məqsədlə tətbiq olunan dəstək paketi müxtəlif sahələrdə çalışan vətəndaşların və mikrosahibkarlıq subyektlərinin əməkhaqlarının böyük hissəsinin ödənilməsinə xidmət edir. 600 min aztəminatlı, işsiz və qeyri-rəsmi çalışanlara da minimal meyara uyğun olaraq ödənişlər edilir. Vergi güzəştləri də nəzərə alınmaqla yardımın ümumi həcmi 3,5 milyard manatdan yuxarıdır. Bunlardan əlavə ödənişli ictimai iş yerlərinin və sosial yardım alan vətəndaşların da sayı xeyli artırılmışdır.

Cənab Suma Çakrabarti Azərbaycan Prezidentinin atdığı addımların və gördüyü işlərin onda dərin təəssüratlar yaratdığını etiraf edərək demişdir: "...addımlarınız olduqca qətiyyətlidir və Siz çevik hərəkət edirsiniz. Sizin də qeyd etdiyiniz kimi, Ümumdünya Səhiyyə Təşkilatı da bunu təqdir etmişdir". O, Azərbaycanda sahibkarlara verilən dəstəyi, ailələrə edilən yardımı orta perspektivli addımlar kimi yüksək qiymətləndirmişdir: "Hesab edirəm ki, ötən bir neçə ay Azərbaycanın gözəl hekayəsi sayıla bilər. Sizin ölkə dünyada ilin ilk rübündə iqtisadi artıma nail olmuş azsaylı ölkələrdəndir, bəlkə də yeganə ölkəsiniz".

Videokonfransda ölkəmizdə iqtisadiyyatın şaxələndirilməsi istiqamətində atılan addımlar, böhran vaxtı qeyri-neft sektorunun müsbət dinamikası qeyd edilmiş, növbəti 2-3 il ərzində ölkələr üzrə dəyərləndirmə aparılarkən Azərbaycanın artıq öndə olacağı əvvəlcədən bəyan edilmişdir.

Prezident İlham Əliyevin lider keyfiyyətləri, təhlükələri zamanında zərərsizləşdirmək bacarığı AYİB-i Azərbaycanla əməkdaşlığı bir çox istiqamətlərdə genişləndirməyə sövq etmişdir. Bank artıq 5 layihədən başqa bu il Azərbaycana 250 milyon dollardan artıq böyük sərmayə yatırmağı planlaşdırır. Sərmayələrin dövlət sektorunda enerji, infrastruktur və İKT sahələrinə yönəldilməsi nəzərdə tutulur. Buraya bəzi dövlət müəssisələrinin kommersiyalaşması da daxildir. Suma Çakrabarti videokonfransda həmçinin əvvəllər müzakirə edilən 150 milyon dollarlıq yaşıl zərfi işə salmaq istədiklərini bildirmiş, elektrik enerjisi şəbəkəsinin təkmilləşdirilməsinə təxminən 100-200 milyon avro məbləğində sərmayə təklif etmişdir.

AYİB prezidenti "Aztelekom" şirkəti ilə bağlı təkliflərini də səsləndirmiş, suvarma ilə bağlı yeni texnologiyaların tətbiqi üçün pilot layihəni, bu sahədə sığorta qurumunun yaradılmasını maliyyələşdirməyə hazır olduqlarını bildirmişdir. Diqqət çəkən odur ki, bu bank videokonfransda Azərbaycan iqtisadiyyatının əksər sahələrinə sərmayələr yatırmaq marağında olduğunu bəyan etmişdir. Söhbət 10-100 milyondan yox, milyarda yaxın məbləğdən gedir. Dünyanı iqtisadi böhranın və koronavirus pandemiyasının bürüdüyü bir vaxtda Azərbaycana səxavətlə belə sərmayələrin təklif edilməsinin arxasında ciddi iqtisadi amillər dayanır. Çünki sərmayəçi əmin olmadığı sahəyə heç vaxt bir sent də yatırmaz.

Azərbaycan Prezidenti İlham Əliyevin cəsarətli qərarları, qətiyyətli addımları və dövlətimizin son illər əldə etdiyi iqtisadi uğurlar milyardlarla sərmayəyə verilən ən ciddi zəmanət kimi çıxış edir.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Prezident İlham ƏLİYEV: "Bu gün Azərbaycanda xalqın iradəsi hökm sürür"

"Bu gün əsl müstəqillik dövrüdür. Çünki bu gün biz özümüz öz gələcəyimizi müəyyən edirik. Bu gün biz özümüz qərarları qəbul edirik. Bu gün Azərbaycanda xalqın iradəsi hökm sürür. Bu gün Azərbaycan dünya miqyasında müasir, öz tarixinə, ənənələrinə sadiq, sürətlə inkişaf edən dinamik ölkədir. Heç kimdən asılı deyilik və elə etməliyik ki, heç vaxt heç kimdən asılı olmayaq. Buna görə güclü olmalıyıq, vətənpərvər olmalıyıq, iqtisadiyyatımız daha da güclü olmalıdır və siyasi iradəmiz yerində olmalıdır. Bugünkü hakimiyyətdə bütün bunlar var və hər kəs görür ki, heç kim bizim işimizə müdaxilə edə bilməz".




"İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin yenicə çapdan çıxmış 98-ci kitabında yer alan bu fikirləri dövlət başçısı 2019-cu il noyabrın 26-da Bakı Dövlət Universitetinin 100 illik yubiley mərasimində söyləyib.

AZƏRTAC xəbər verir ki, akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin növbəti kitabındakı materiallar 2019-cu ilin noyabr-dekabr aylarını əhatə edir.

Çoxcildliyin 98-ci kitabına Prezident İlham Əliyevin Türkiyənin Ədirnə vilayətinin İpsala qəsəbəsində TANAP qaz kəmərinin Avropa ilə birləşən hissəsinin açılış mərasimindəki çıxışının mətni və bu ölkəyə işgüzar səfəri, habelə Azərbaycana gəlmiş İordaniya Haşimilər Krallığının Kralı II Abdullah bin Əl-Hüseyn, Ukrayna Prezidenti Vladimir Zelenski ilə görüşləri, eləcə də bir sıra dövlətlərin yüksəkvəzifəli nümayəndələrini qəbul etməsi haqqında materiallar toplanıb.

Azərbaycan Prezidentinin bütün görüş və danışıqlarında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli yolları prioritet məsələ kimi qaldırılır ki, bu da hər cilddə öz əksini tapır.

Kitabda oxucular dövlət başçısının Sumqayıt şəhərinin 70 illiyinə həsr olunmuş tədbirdə dərin məzmunlu çıxışının mətni, XXV beynəlxalq "BakuTel-2019" sərgisində təmsil olunan müxtəlif ölkələrin nümayəndələri ilə görüş və söhbətlərinə dair materiallarla da tanış ola bilərlər.

Prezident İlham Əliyevin Şamaxı rayonuna səfəri zamanı "ASAN həyat" kompleksinin açılış mərasimində çıxışının mətni, zəlzələ nəticəsində ziyan çəkmiş ailələr üçün yeni inşa edilmiş binada yaradılan şəraitlə tanışlığı, Nəsiminin 650 illik yubileyi münasibətilə ağacəkmə aksiyasında iştirakı, habelə Bakı Gəmiqayırma zavodunda inşa olunmuş ilk neft tankerinin istismara verilməsi və "Azərbaycan" adlı gəmi-bərənin suya salınması mərasimində iştirakı haqqında ətraflı məlumatlar da yeni nəşrdə yer alıb.

Azərbaycan Prezidentinin Avropa-Qafqaz-Asiya beynəlxalq nəqliyyat dəhlizinin (TRASEKA) 20 illik fəaliyyətinə həsr olunmuş yubiley konfransının iştirakçılarına məktubu və digər məktublar da 98-ci kitaba daxil edilib.

Kitabda "Qeydlər", "Şəxsi adlar", "Coğrafi adlar" göstəriciləri verilib.

"Azərnəşr" tərəfindən buraxılan 98-ci kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# Xalqını sevən və qoruyan PREZİDENT

## İlham Əliyevin pandemiyanın fəsadları ilə uğurlu mübarizə strategiyası ümummilli dəstəklə müşayiət olunur

Əvvəli 1-ci səh.

Dövlət başçısının reaksiyası isə, ilk növbədə, çətinliyə düşmüş vətəndaşa kömək göstərilməsindən, üzləşdiyi problemlərin həllindən ibarət olub.

Ölkə ictimaiyyəti koronavirusun yayılmasının qarşısının alınması və onun sosial-iqtisadi sferaya mənfi təsirlərinin azaldılması istiqamətində də ilk gündən Prezident İlham Əliyevin prinsipial mövqeyini görməkdədir. Dövlət başçısı həm koronavirusla mübarizə, həm aztəminatlı insanların, həm sahibkarların və bütövlükdə iqtisadiyyatın bu qlobal pandemiya dövründə çətinlik çəkməməsi üçün nə lazımdırsa, hər birinin ən yüksək səviyyədə təmin olunmasına tapşırıq və göstərişlərini verir. Məlum olduğu kimi, xidmət və digər sahələrdə çalışan 600 min vətəndaşın və mikrosahibkarlıq subyektlərinin əməkhaqlarının böyük hissəsi dövlət tərəfindən ödənilib. Bununla yanaşı, 600 min aztəminatlı, işsiz və qeyri-rəsmi çalışan vətəndaşa minimal meyara uyğun olaraq ödənişlər edilib. Eyni zamanda ödənişli ictimai iş yerlərinin sayı 2 dəfə artırılaraq 90 minə çatdırılacaq. Aprelin 1-dən həm də ünvanlı sosial yardım alan ailələrin sayı 12 min artırılıb. Hər bir belə ailəyə ayda 222 manat ödənilir.

Təbii ki, bu, dövlət üçün böyük xərclər deməkdir. Belə ki, vergi güzəştləri də nəzərə alınsa, indiyədək vətəndaşların sosial rifahını, o cümlədən iqtisadi sferanı əhatə edən dəstək proqramlarının maliyyə tutumu 3,5 milyard manatdan çoxdur. Bütün bunlar - ölkə vətəndaşlarının sağlamlığının təmin olunması üçün atılan addımlar, işsizlərə müavinətlərin verilməsi və digər sosial layihələr, əməkhaqların dövlət tərəfindən ödənilməsi, xaricdəki soydaşlarımızın vətənə gətirilmələri, karantin rejimi müddətində aztəminatlı ailələrə və işsizlərə yardım edilməsi xalqımıza diqqət və qayğının göstəricisidir.

### İlham Əliyevə təşəkkür məktubları gəlməkdə davam edir

Prezident İlham Əliyevin pandemiyanın fəsadları ilə uğurlu mübarizə strategiyası ümummilli dəstəklə müşayiət olunur. Dövlət başçısının koronavirusla mübarizə və insanların sağlamlığı və rifahı naminə dövlətin imkanlarını səfərbər etməsi Azərbaycan ictimaiyyəti tərəfindən təqdir edilir, böyük razılıqla qarşılanır. Təsadüfi deyil ki, bu günlərdə cənab İlham Əliyevin ünvanına ölkənin dörd bir yanından minlərlə təşəkkür məktubu gəlməkdə davam edir.

Bu məktubların hər birində Prezidentə dərin minnətdarlıq hissi ifadə olunur, ən xoş, ən səmimi arzular səsləndirilir. Ən əsası bu məktubların hər biri xalqımızın öz rəhbəri ətrafında sıx birləşməsinin və bu çətin günlərdə milli həmrəylik nümayiş etdirməsinin göstəriciləridir. Koronavirusla mübarizə istiqamətində atılan bütün addımlar respublika ictimaiyyəti tərəfindən böyük razılıqla qarşılanır. Vətəndaşlar Prezident İlham Əliyevə ünvanladıqları məktublarında həyata keçirilən bütün tədbirləri yüksək qiymətləndirərək dövlət başçısına, eləcə də öz qayğısını insanlardan əsirgəməyən Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildirir, ən səmimi arzularını ifadə edirlər.

Beləliklə, ölkə ictimaiyyəti bu çətin günlərdə bir daha yanında öz liderini, onun qayğısını, dəstəyini gördü. Hər zaman olduğu kimi, Prezident İlham Əliyev xalqımızın və dövlətimizin bu qlobal təhlükədən alnıaçıq çıxması və insanların çətinlik çəkməməsi üçün nə lazımdırsa etdi. Ona görə də vətəndaşların məktublarının hər birində səmimi minnətdarlıqla yanaşı, xalqımızın milli həmrəyliyi və İlham Əliyev siyasətinə sədaqət ifadə olunur.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Pandemiya təhlükəsi tam sovuşmayıb

## Əhalidə arxayınçılıq yaranması bu bəlanın yenidən alovlanmasına təkan verə bilər

Əvvəli 1-ci səh.

Həm koronavirusun insanlarımızın sağlamlığına daha ağır zərbə vurmasının qarşısı alınır, həm də ölkədəki sosial-iqtisadi durumun stabilləşdirilməsi üçün konkret effektiv planlar reallaşdırılır.

Eyni zamanda Ümumdünya Səhiyyə Təşkilatının, Birləşmiş Millətlər Təşkilatının hesabatlarında, ayrı-ayrı dünya mətbuatı nümunələrində Azərbaycanın koronavirusla mübarizəsi yüksək dəyərləndirilir. Eləcə də Azərbaycan cəmiyyəti Prezident İlham Əliyevin "Biz birlikdə güclüyük!" şüarına səs verməklə çətin günlərdə yaşlılara, ahıllara, əlillərə, aztəminatlı ailələrə, köməyə, yardıma ehtiyacı olanlara yardım etdi, milli həmrəylik nümayiş etdirdi. Bununla belə arxayınlaşmaq hələ tezdir.

Hər bir vətəndaş dünyada gedən prosesləri görür. Bütün resurslar səfərbər edilib ki, ölkəmizdə bu virusa yoluxma minimum olsun. Ancaq burada ən əsas məsələ cəmiyyətin, hər bir vətəndaşın məsuliyyətli davranması, tapşırıqlara əməl etməsidir. Koronavirusla mübarizədə hər bir vətəndaşın məsuliyyəti hökumətin məsuliyyəti qədərdir.

Faktdır ki, Azərbaycanda koronavirus pandemiyasının qarşısının alınması, bu qorxunc xəstəliyin fəsadlarının aradan qaldırılması, insanların sağlamlıqlarının mühafizə edilməsi baxımından dövlət tərəfindən bütün zəruri tədbirlər görülüb. İndi bu tədbirlərin effektiv nəticələnməsi üçün insanların məsuliyyətli davranması, həmrəylik nümayiş etdirməsi, dövlətlə birlikdə olması çox vacibdir. Yəni məhdudiyyətlərin bir qismi aradan qaldırılsa da, virusa yoluxma sürətinin qarşısını almaq üçün ölkədə kütləvi tədbirlər keçirilməməli, vətəndaşlar, əvvəlki dövrdə olduğu kimi sosial məsafə tələbinə riayət etməli, özünütəcrid, "Evdə qal!" kampaniyasına davam etməlidirlər.

Azərbaycan artıq bu probleme qarşı dünya ölkələri üçün uğur nümunəsi meydana qoyub və bunun davamlı olması vətəndaş məsuliyyətindən də kifayət qədər asılıdır. Bu mənada insanlar da koronavirusa qarşı mübarizədə öz üzərilərinə düşənləri məsuliyyətlə yerinə yetirməlidirlər.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# ABŞ-ın Beynəlxalq Dini Azadlıqlar üzrə Komissiyasının növbəti illik hesabatında Azərbaycanla bağlı məlumat dərc olunub

Resabatda ABŞ Dövlət Departamentinin xüsusi nəzarət üçün təklif edilən ölkələr siyahısına Azərbaycanın adı da əlavə edilib.

Siyahıda, həmçinin Türkiyə, Qazaxıstan, Özbəkistan, İndoneziya, Malayziya, Cənubi Afrika Respublikası və bir sıra ölkələrin adları yer alıb. Qeyd olunmalıdır ki, həmin komissiya öz fəaliyyətində bir sıra ölkələrə qarşı qərəzli yanaşma ilə seçilir. Hesabatda dini azadlıqların qorunması sahəsində Azərbaycanın qonşu ölkələrdən daha çox nailiyyətlər əldə etdiyi qeyd olunub. Bununla yanaşı, ötən illərdə olduğu kimi, bu il də hesabatın Azərbaycana dair hissəsində bəzi qeyri-obyektiv və həqiqəti əks etdirməyən məqamlar öz əksini tapıb.

Ötən il də olduğu kimi, komissiyanın 9 üzvündən biri Coni Mur bu qərəzli yanaşma ilə razılaşmayaraq öz xüsusi rəyini açıqlayıb və bu mövqe hesabata daxil edilib.

Coni Mur Azərbaycanın adının bu hesabata daxil edilməsini düzgün hesab etməyib. O, Azərbaycanda sünni və şiə məzhəbinə aid nümayəndələrin birlikdə ibadət etdiklərini, Yevangelist və Rus Pravoslav nümayəndələrinin birlikdə dini ayinləri icra etdiklərini, yəhudi icmasının tam azad və təhlükəsiz şəraitdə yaşadığını qeyd edib. Həmçinin C.Mur Azərbaycan əhalisinin əksəriyyətinin müsəlman olmasına baxmayaraq, hindu liderlərinin Azərbaycanda qonaq edildiklərini, İsraillə ictimai və diplomatik əlaqələrinin olmasını xüsusi qeyd edib. Sonda o, Ermənistanla Azərbaycan arasında sülhün tezliklə əldə olunmasının zəruriliyini qeyd edib.

C.Murun sözügedən prinsipial və obyektiv mövqeyi USCIRF-in illik hesabatının əlavəsi kimi dərc edilib.

***AZƏRTAC***

# YAP-ın könüllüləri və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşları ahıl vətəndaşlara yardım paylayırlar

Koronavirusa qarşı mübarizə tədbirlərinin gücləndirilməsi məqsədilə Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq fərmanı ilə ölkəmizdə Koronavirusla Mübarizəyə Dəstək Fondunun yaradılması və bütün cəmiyyətimizin dövlət başçısının təşəbbüsünə dəstək verməsi xalqın həmrəyliyinin və dövlətinə inamının göstəricisidir.

Yeni Azərbaycan Partiyasından (YAP) AZƏRTAC-a bildirilib ki, Prezident İlham Əliyevin çağırışına əsasən, karantin rejimi ilə əlaqədar olaraq partiyanın könüllüləri Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) sosial işçiləri ilə birlikdə martın 27-dən tənhalara, ahıl vətəndaşlara yardım paylayır, onlara sosial xidmət göstərirlər. Həmin tarixdən etibarən bu aksiyaya uyğun olaraq YAP-ın könüllüləri və ƏƏSMN-nin sosial işçiləri müntəzəm olaraq ahılları ziyarət edir, onları gündəlik lazım olan ərzaq və tibbi vasitələri ilə təmin edirlər.

Öz növbəsində tənha, ahıl insanlar göstərilən qayğıya görə minnətdarlıqlarını ifadə edirlər.

Xatırladaq ki, Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən martın 24-dən aprelin 20-dək ölkədə xüsusi karantin rejimi elan edildiyindən və bu tədbirlər çərçivəsində yaşı 65-dən yuxarı olan şəxslərin evdən çıxması qadağan olunduğundan YAP-ın fəalları və könüllüləri bu qəbildən olan tənha yaşayan sakinlərə yardımlar edir, sosial xidmət göstərirlər.

# Azərbaycanda koronavirusa 49 yeni yoluxma faktı qeydə alınıb, 46 nəfər müalicə olunaraq evə buraxılıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasına 49 yeni yoluxma faktı qeydə alınıb, 46 nəfər müalicə olunaraq sağalmış və evə buraxılıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildiriblər ki, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış, xronik obstruktiv ağciyər xəstəliyi və ürəyin işemik xəstəliyi olan 1944-cü il təvəllüdlü vətəndaş vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 1766 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 1267 nəfər müalicə olunaraq sağalıb, 23 nəfər vəfat edib, 476 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 18 nəfərin vəziyyəti ağır, 26 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir.

Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 137.379 test aparılıb.

# "Koronavirus pandemiyası ilə mübarizədə Azərbaycan modeli" mövzusunda videokonfrans keçirilib

Aprelin 29-da Yeni Azərbaycan Partiyasının təşəbbüsü ilə "Koronavirus pandemiyası ilə mübarizədə Azərbaycan modeli" mövzusunda videokonfrans keçirilib.

YAP-dan AZƏRTAC-a bildiriblər ki, onlayn müzakirədə Milli Məclisinin deputatları Ramin Məmmədov, Ramil Həsən, Könül Nurullayeva, Şahin İsmayılov, Şahin Seyidzadə, həmçinin YAP Gənclər Birliyinin sədri Seymur Orucov, ARGTMŞ-nin sədri Məryəm Məcidova, "ASAN Könüllüləri" Gənclər Təşkilatının sədri Səbinə Cabbarova, "CAVAN" Gənclər Hərəkatı İB-nin nümayəndəsi Murad Ağabəyli və YAP Nizami rayon təşkilatı gənclər birliyi sədrinin müavini Ramil Vəlibəyov iştirak ediblər.

Videokonfransda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə koronavirusa qarşı mübarizə sahəsində həyata keçirilən genişmiqyaslı tədbirlər müzakirə edilib.

Qeyd edilib ki, Prezident İlham Əliyevin qəti tapşırıqları əsasında qısa müddətdə ali və orta təhsil müəssisələrində tədris prosesinin dayandırılması, ölkəmizdə genişmiqyaslı dezinfeksiya tədbirlərinin təşkili, tərəddüd etmədən ölkəmizin sərhədlərinin bağlanmasına dair qonşu dövlətlərlə danışıqların aparılması və qəti qərarların qəbul edilməsi koronavirus biomüharibəsində gələcək qələbənin əldə olunmasının əsas təminatına çevrilib. Paralel olaraq dövlət başçısının rəhbərliyi ilə pandemiya dövrünün çağırışlarına uyğun olaraq yeni işlək strukturların yaradılması və bir sıra dövlət qurumlarının fəaliyyətinin yenidən qurulması, onların əlaqəli və operativ işlərinin təşkili koronavirusla mübarizənin bütün cəbhə xətti boyu aparılmasına meydan açıb. Azərbaycan Respublikasının Prezidentinin son onillik ərzində səhiyyə sahəsində həyata keçirdiyi ardıcıl islahatlar, paytaxtda və regionlarda istifadəyə verilmiş müasir tipli xəstəxana kompleksləri, xəstəxanaların ən müasir tibbi avadanlıq və cihazlarla təmin olunması, həkimlərin bilik və bacarıqlarının daha da təkmilləşdirilməsi sahəsində atılmış addımlar da respublikamızda rəqabətədavamlı səhiyyə səviyyəsinin formalaşdırılması ilə nəticələnib.

Videokonfransda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə Türk Şurasına üzv ölkələrin dövlət başçılarının onlayn fövqəladə Zirvə toplantısının keçirilməsi də əlamətdar tarixi hadisə kimi diqqətə çatdırılıb.

Vurğulanıb ki, pandemiyanın mənfi təsirlərinə baxmayaraq, ölkədə iş yerləri saxlanılıb, işçilərin ixtisar edilməsinə imkan verilməyib, 600 min nəfərdən çox aztəminatlı insanlara, iş yerlərini itirməli olmuş çalışanlara maddi dəstək verilib, vergi güzəştləri tətbiq olunub və ümumilikdə sosial-iqtisadi sahədə dayanıqlılığı təmin etmək üçün 3.5 milyard manat vəsait ayrılıb.

Bununla yanaşı, videomüzakirə zamanı Azərbaycan xalqına düşmən kəsilmiş, daim anti-milli mövqedə durmuş radikal müxalifətin siyasi təxribatları, onların sosial şəbəkələrdəki Azərbaycan xalqının və dövlətinin milli maraqlarına zərbə vurmağa yönəlmiş fəaliyyəti də kəskin tənqid olunub.

Müzakirələrin ümumi nəticəsi olaraq deyilib ki, ölkəmizin bütün vətəndaşları kimi gənclər də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin koronavirusla mübarizə sahəsindəki ardıcıl, yorulmaz və məqsədyönlü fəaliyyətini, ölkə vətəndaşlarının mənafelərinə həsr edilmiş ümummilli siyasətini ürəkdən dəstəkləyir və müdafiə edirlər.

# Ölkəmizin su təhlükəsizliyi

**Azərbaycan qədim suvarma əkinçiliyi ölkəsidir. Onun əsas kənd təsərrüfatı bazası sayılan Kür-Araz düzənliyi suvarılan torpaqların istifadə edilməsi baxımından dünyanın ən qədim və unikal regionlarından biridir. Hələ V-VI əsrlərdə bu ərazilərdə tikilmiş suvarma kanallarının izləri indiyə qədər qalmaqdadır. Düzənliyin ərazisi quraq və arid zonada yerləşdiyinə görə burada suvarma aparılmadan, meliorasiya və su təsərrüfatını inkişaf etdirmədən kənd təsərrüfatı məhsullarının yetişdirilməsi mümkün deyildir.**

Bunu böyük uzaqgörənliklə qeyd edən və "Meliorasiya və su təsərrüfatı obyektləri bizim sərvətimizdir və bu sərvətdən səmərəli istifadə etməliyik" sözlərini tarixə yazmış müdrik şəxsiyyət, dünya şöhrətli siyasətçi Ulu Öndərimiz Heydər Əliyev meliorasiya və su təsərrüfatı sahəsini daim diqqət mərkəzində saxlamış, onun inkişafına xüsusi əhəmiyyət vermişdir.

Azərbaycanda meliorasiya və irriqasiya işlərinə keçən əsrin əvvəllərində, lakin onun genişmiqyaslı, intensiv inkişafına Ulu Öndər Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi 1969-cu ildən başlanılmışdır. Bu vaxtdan etibarən ölkənin kənd təsərrüfatında, sənayesində, ümumiyyətlə, iqtisadiyyatın bütün sahələrində xüsusi bir yüksəliş dövrü başlandı. Ölkədə kənd təsərrüfatının inkişaf etdirilməsi haqqında bir neçə tarixi qərar qəbul edildi. Bu qərarlarda nəzərdə tutulan tədbirlərin yerinə yetirilməsini təmin etmək məqsədilə kompleks meliorasiya proqramları hazırlandı və meliorasiya olunmuş torpaqlarda kənd təsərrüfatı istehsalının sabit şəkildə artırılması üçün mühüm tədbirlər həyata keçirilmişdir.

Ulu Öndərimiz keçmiş İttifaq rəhbərliyində olduğu illərdə də respublika iqtisadiyyatının, o cümlədən meliorasiya və su təsərrüfatının inkişafını daim diqqət mərkəzində saxlamışdır. Lakin böyük təəssüf hissi ilə qeyd etmək lazımdır ki, o, keçmiş İttifaq rəhbərliyindən getdikdən sonra kənd təsərrüfatının, xüsusilə də meliorasiya və su təsərrüfatının inkişafı demək olar ki, tamamilə dayandı. Keçmiş respublika rəhbərliyinin səriştəsizliyi və bu sahəyə laqeyd münasibəti nəticəsində meliorasiya və su təsərrüfatı üzrə aparılan işlərin həcmi kəskin surətdə azaldı, kapital qoyuluşu heçə endirildi, sistemlərin istismarına ayrılan büdcə vəsaitinin həcmi xeyli aşağı düşdü. Nəticədə mühüm dövlət əhəmiyyətli obyektlərin saxlanılması, istismarı və təmir-bərpası son dərəcə çətinləşdi.

1993-cü ildə Ulu Öndər Heydər Əliyevin respublika rəhbərliyinə qayıdışı meliorasiya və su təsərrüfatı sahəsini məhv olmaqdan xilas etdi, sahə öz inkişafının yeni mərhələsinə qədəm qoydu, ona dövlətin diqqət və qayğısı bərpa olundu, mövcud meliorasiya potensialından daha səmərəli istifadə olunması yolları və sahənin gələcək inkişaf istiqamətləri müəyyənləşdirildi. Ölkənin bazar iqtisadiyyatına keçməsi ilə əlaqədar aqrar sahə ilə paralel olaraq, meliorasiya və su təsərrüfatında da islahatların həyata keçirilməsinə başlanıldı, onların normativ-hüquqi bazası yaradıldı. Bu məqsədlə 40-dan artıq normativ-hüquqi sənəd hazırlandı ki, bunlardan da ən mühümü 1996-cı ildə imzalanmış "Meliorasiya və irriqasiya haqqında" Azərbaycan Respublikasının Qanunudur. Qanun meliorasiya və irriqasiya sahəsində dövlət idarəçiliyinin əsaslarını, meliorasiya və irriqasiya tədbirlərinin aparılması qaydalarını müəyyən etdi.

Ulu Öndərin göstərişlərini əsas tutaraq respublikaya qoyulan xarici investisiyalar ilk növbədə meliorasiya və su təsərrüfatı sahəsinə yönəldildi. Xarici investisiyaların səmərəliliyini təmin etmək məqsədilə tikintisi yarımçıq qalmış 150 obyektdən respublika üçün mühüm əhəmiyyət kəsb edən 11 obyekt seçildi və onlardan iqtisadiyyatımız üçün ən vacib olan üç obyektin - Baş Mil-Muğan kollektorunun tikintisinin, Samur-Abşeron suvarma sisteminin yenidən qurulmasının və Naxçıvan Muxtar Respublikasında Vayxır su anbarının tikintisinin birinci növbədə maliyyələşdirilməsi qərara alındı.

Ümummilli Lider Heydər Əliyevə İslam dünyasının böyük hörmətinin və ehtiramının rəmzi olaraq, İslam İnkişaf Bankının rəhbərliyi Baş Mil-Muğan kollektorunun tikintisinin davam etdirilməsinə güzəştli kredit və Samur-Abşeron suvarma sisteminin yenidən qurulması sxeminin hazırlanmasına əvəzsiz olaraq vəsait ayırdı. İslam İnkişaf Bankının krediti və respublika büdcəsindən ayrılan vəsait hesabına 1998-ci ildə kollektorun tikintisinin davam etdirilməsinə başlanıldı və 2000-ci ilin noyabr ayında kollektorun 52,7 kilometr uzunluğunda 2-ci buraxılış kompleksinin tikintisi yüksək keyfiyyətlə başa çatdırılaraq istismara verildi.



Heydər Əliyevin yaxından köməyi sayəsində Dünya Bankının krediti ilə 2003-cü ildə Baş Mil-Muğan kollektorunun 28,5 kilometr uzunluğunda 3-cü buraxılış kompleksinin tikintisinə başlanıldı. Samur-Abşeron suvarma sistemi ölkəmizin şimal bölgəsinin, eləcə də Bakı-Sumqayıt şəhərlərinin və Abşeron yarımadasının yaşayış məntəqələrini, kənd təsərrüfatı və sənaye müəssisələrini içməli, suvarma və texniki su ilə təmin edən irimiqyaslı kompleks su təsərrüfatı obyektidir. Uzun müddət ərzində suya daim artan ehtiyacı ödəmək məqsədilə Samur-Abşeron magistral kanalı əsaslı təmirə dayanmadan fasiləsiz olaraq istismar olunurdu. Bunun nəticəsində kanalın beton örtüyü dağılıb hissə-hissə sıradan çıxmış, qurğuların bir hissəsi funksiyasını itirmiş və su itkisi artmışdır.

Ulu Öndərin tapşırığına əsasən, bu problemin həlli yolları araşdırılmış və Samur-Abşeron suvarma sisteminin yenidən qurulması ilə bağlı təxirəsalınmaz tədbirlərin işlənib həyata keçirilməsi təklif olunmuşdur. İslam İnkişaf Bankının texniki yardımı ilə beynəlxalq məsləhətçi şirkət tərəfindən hazırlanmış sxemin birinci mərhələsində Samur çayı üzərində baş sugötürücü qurğunun və Samur-Abşeron kanalının Vəlvələçay çayına qədər olan hissəsinin yenidən qurulması, Xanarx kanalının, Vəlvələçay-Taxtakörpü, Taxtakörpü-Ceyranbatan kanallarının və Taxtakörpü su anbarının tikintisi nəzərdə tutulurdu. Vayxır su anbarının inşasına 1983-cü ildə başlanılmış, lakin maliyyə vəsaitinin olmamasına görə tikinti işləri yarımçıq dayandırılmışdır.

Ümummilli Lider Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi dövrdə (1969-1982-ci illər) meliorasiya və su təsərrüfatı kompleksinə 2,5 milyard manatdan artıq vəsait yönəldilmişdir ki, bu da sovet hakimiyyəti dövrünün 50 ili ərzində bu sahəyə qoyulan vəsaitdən 2 dəfədən artıq olmuşdur.

Ulu Öndərimiz Heydər Əliyev 2002-ci ildə Naxçıvan Muxtar Respublikasında olarkən onun su anbarının istismara verilməsi barədə göstərişindən sonra dövlət büdcəsindən ayrılmış vəsait hesabına Türkiyənin tikinti şirkətləri tərəfindən bu obyektin tikintisi başa çatdırılmışdır. Ümumiyyətlə, bu illərdə 200 min hektara yaxın yeni suvarılan torpaqlar kənd təsərrüfatı dövriyyəsinə cəlb edilmiş, 400 min hektara yaxın suvarılan torpaqların meliorativ vəziyyəti yaxşılaşdırılmış, 825 min hektar sahədə suvarma sistemləri yenidən qurularaq onların su təminatı artırılmış, 460 min hektar sahədə əsaslı hamarlama və 150 min hektar sahədə əsaslı yuma işləri aparılmış, texniki cəhətdən mükəmməl irriqasiya və meliorasiya sistemləri yaradılmışdır.

Heydər Əliyevin müəyyənləşdirdiyi strateji inkişaf kursu bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən böyük əzm və qətiyyətlə davam etdirilir. Heydər Əliyev kimi siyasət və idarəçilik korifeyindən sonra ölkənin idarə edilməsi nə qədər çətin görünsə də, Prezident İlham Əliyev bu işin öhdəsindən layiqincə gəlir və öz fəaliyyəti ilə artıq sübut etmişdir ki, o, mövqe tutan və xalqını xoşbəxt gələcəyə aparan liderdir.

Xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin banisi və qurucusu Heydər Əliyevin müəyyən etdiyi siyasi kursa uyğun olaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən məqsədyönlü dövlət siyasətinin həyata keçirilməsi, dövrün tələblərinə uyğun sistemli islahatların aparılması, ictimai-siyasi, sosial-iqtisadi həyatda mütərəqqi dəyişikliklərin edilməsi, onun qətiyyətli addımları, səriştəli idarəçiliyi nəticəsində ölkənin dayanıqlı inkişaf dinamikasına nail olunmuş, idarəetmə mexanizmi mütəmadi olaraq təkmilləşdirilmiş, səmərəli dövlət idarəçiliyinin, təhlükəsizliyinin, sabitliyin gücləndirilməsi ilə bağlı vaxtında görülən tədbirlər müstəqilliyimizin daha da möhkəmləndirilməsini, dövlətimizin qüdrətinin artmasını, xalqımızın əmin-amanlığının və rifah halının yüksəlməsini təmin etmişdir. İqtisadiyyatın çoxşaxəliyinə və innovativ dinamik inkişafına nail olan Azərbaycan vaxtında reallaşan islahatlar və icra olunan layihələrlə bu gün regionda lider dövlətə, iqtisadi və siyasi mərkəzə çevrilmişdir.

Möhtərəm Prezidentimizin rəhbərliyi altında qəbul edilmiş regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarının və "Strateji yol xəritələri"nin dəqiq mexanizmlərlə icrası inkişafın dinamizmini artırır və əhatəsini daha da genişləndirir. Sürətli, yüksək templi bu irəliləyiş dövlətin yürütdüyü daxili və xarici siyasətin düzgünlüyünün düşünülmüş olması və müasir tələblərə cavab verə bilməsi sayəsində mümkün olmuşdur. Təbii ki, qazanılan nailiyyətlərdə ölkə rəhbərinin güclü, prinsipial siyasi iradəsinin, vaxtında düzgün qərarlar qəbul etməsinin və xalqımızın ona olan inamının da böyük rolu olmuşdur.

Son 16 il ərzində Azərbaycan böyük və şərəfli yol keçmişdir. Ölkəmiz bütün sahələrdə böyük uğurlara imza atmışdır. Azərbaycanın beynəlxalq nüfuzu artmış, ölkəmizdə aparılan siyasi-iqtisadi islahatlar dünya birliyi tərəfindən yüksək qiymətləndirilir. Bütün beynəlxalq mötəbər qurumların reytinqlərində Azərbaycan qabaqcıl yerlərdədir. Ölkəmizdə köklü iqtisadi islahatlar, bölgələrdə infrastruktur layihələri icra edilmişdir. İnfrastruktur layihələri həm ölkəmizin ümumi inkişafına böyük təkan vermiş, həm də bizim nəhəng transmilli infrastruktur layihələrimiz Avrasiyanın enerji və nəqliyyat xəritəsini dəyişmişdir.

Prezident İlham Əliyev kənd təsərrüfatının inkişafı üçün böyük meliorativ tədbirlərin görüldüyünü, son 16 il ərzində dörd su anbarının - Taxtakörpü, Şəmkirçay, Göytəpə və Tovuzçay su anbarlarının tikildiyini, bu anbarların və çəkilmiş kanalların on minlərlə hektar əkin sahəsini suvarmaq üçün həlledici rol oynadığını, 100 min hektardan çox suvarılmayan torpaqlara su xətləri, kanallar çəkildiyini vurğulamış, görülən tədbirlərin fermerlərə, sahibkarlara şərait yaratdığını və kənd təsərrüfatının inkişafında böyük rol oynadığını qeyd etmişdir. Hazırda meliorasiya və su təsərrüfatı sistemi də ölkə iqtisadiyyatının mühüm və ayrılmaz bir parçası olaraq qazanılmış nailiyyətlərdə öz payı olan sahəyə, genişmiqyaslı islahatların ünvanına çevrilmişdir.







Son 16 ildə Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti tərəfindən meliorasiya və irriqasiya sistemlərinin normal istismarının təşkili, tələb olunan həcmlərdə təmir-bərpa işlərinin görülməsi, suvarılan torpaqların su təminatının və meliorativ vəziyyətinin yaxşılaşdırılması, sel və daşqın sularına qarşı mübarizə işlərinin davam etdirilməsi sahəsində müvafiq tədbirlər həyata keçirilmişdir.

Belə ki, bütün maliyyə mənbələri hesabına 2004-2020-ci illərdə 4,5 min kilometr uzunluğunda suvarma kanallarının, 3,0 min km uzunluğunda kollektor-drenaj şəbəkələrinin tikintisi, yenidən qurulması və bərpası, 462 min hektar sahədə torpaqların su təminatının və 286 min hektar sahədə meliorativ vəziyyətinin yaxşılaşdırılması işləri yerinə yetirilmiş, 194 min hektar yeni suvarılan torpaq sahələri əkin dövriyyəsinə daxil edilmişdir. Mövcud torpaq mühafizə bəndlərinin 800 km-dən artıq hissəsi əsaslı surətdə hündürləşdirilmiş və möhkəmləndirilmiş, çaylarda sel və daşqınlara qarşı 206 km-dən artıq mühafizə tədbirləri həyata keçirilmiş, əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün 3062 ədəd (o cümlədən 2020-ci ildə - 443 ədəd) subartezian quyusu qazılaraq istifadəyə verilmişdir. Ümumi sututumu 456 milyon kubmetr olan 4 su anbarı (Taxtakörpü, Şəmkirçay, Tovuzçay, Göytəpə) tikilmiş, eləcə də ümumi sututumu 15,5 milyon kubmetr olan 3 su anbarı (Pirsaatçay, Zoğalavaçay,Ləvain) isə təmir-bərpa edilmişdir.

Dünya Bankının krediti ilə 140 min hektar suvarılan sahəyə xidmət edən Araz çayı üzərindəki Bəhrəmtəpə hidroqovşağının, respublikanın 9 rayonunun və Naxçıvan MR-in 52 min hektara yaxın ərazisində (Babək və Şərur rayonları) suvarma-drenaj şəbəkələrinin təmir-bərpası işləri başa çatdırılmış, respublikanın daha 15 rayonunda Sudan İstifadəedənlər birliklərinin institusional gücləndirilməsi və onların 85 min hektar xidmət ərazilərində təsərrüfatdaxili suvarma-drenaj şəbəkələrinin təmir-bərpa işləri sona çatdırılmışdır. Bu məqsədlə layihə çərçivəsində 198 ədəd ofis binası, respublikanın 4 rayonunda Regional Dəstək mərkəzləri tikilmiş və 88 ədəd ekskavator alınaraq Sudan İstifadəedənlər birliklərinin balansına verilmişdir. Layihənin başa çatmamasına baxmayaraq, nəzərdə tutulduğundan 39,4 faiz artıq, yəni 119 min hektara yaxın sahədə suvarma və drenaj şəbəkələrinin bərpası, yenidən qurulması işləri tamamlanmışdır. Eyni zamanda respublikanın 8 rayonunda içməli su təchizatı və kanalizasiya sistemləri infrastrukturunun bərpası və tikintisi işləri davam etdirilmiş, Ağsu, İsmayıllı, Siyəzən, Şabran, Cəlilabad, Lerik və Masallı rayonlarında içməli su və kanalizasiya xətlərinin tikintisi başa çatdırılmış, Yardımlı rayonunda isə bu işlər davam etdirilmişdir.

"Samur-Abşeron suvarma sisteminin yenidən qurulması" layihəsinə daxil olan Xanarx kanalının tikintisi, Samur çayı üzərində yerləşən Baş Suqəbuledici qurğunun bərpası, Samur çayı yaxınlığında Baş Suduruldücunun tikintisi, Samur-Abşeron kanalının ilk 50 km-lik hissəsinin və bu hissədə yerləşən uzunluğu 185,7 km olan təsərrüfatlararası kanalların yenidən qurulması işləri başa çatdırılmışdır. Respublikanın 500 min hektar suvarılan sahələrindən duzlu qrunt sularının Xəzər dənizinə axıdılmasını təmin edən Baş Mil-Muğan kollektorunun 3-cü hissəsinin tikintisi başa çatdırılaraq Mil-Qarabağ kollektoru ilə birləşdirilmişdir. Samur-Abşeron kanalının 50-ci kilometrindən suyun Taxtakörpü su anbarına verilməsi məqsədilə tikintisinə başlanılmış uzunluğu 32 km olan Vəlvələçay-Taxtakörpü kanalının, ümumi sututumu 268,4 milyon kubmetr olan Taxtakörpü su anbarının (ümumi gücü 25 MVt olan Su Elektrik Stansiyası ilə birlikdə) və uzunluğu 108 km-ə yaxın olan Taxtakörpü-Ceyranbatan kanalının tikintisi işləri başa çatdırılmışdır. Eyni zamanda ilk mərhələdə Qusarçay, Qudyalçay və Caqacuqçay çayları üzərində sugötürücü qurğuların və nəqledici kanalların tikintisinin başa çatdırılması ilə Samur-Abşeron kanalına əlavə su verilməsi təmin edilmişdir.

2013-cü ildə Taxtakörpü su anbarı, Taxtakörpü Su Elektrik Stansiyası və Taxtakörpü-Ceyranbatan su kanalının açılışı mərasimində möhtərəm Prezidentimiz İlham Əliyev öz nitqində çox böyük uzaqgörənliklə demişdir: "Beləliklə, Taxtakörpü su anbarının, Şəmkirçay su anbarının və suvarma sisteminin yaradılması nəticəsində biz 2 ildən sonra 250 min hektar yeni torpaq sahələri əldə edəcəyik. Bu, tarixi bir nailiyyət olacaqdır. Bu layihələrin icrası, eyni zamanda, ölkəmizin su təhlükəsizliyini də təmin edir. Bu məsələlərə də biz daim diqqət göstəririk. Çünki ölkəmizi qidalandıran əsas su mənbələri Azərbaycanın hüdudlarından kənarda formalaşır. Ona görə su ehtiyatlarından səmərəli şəkildə istifadə etmək, yeni layihələri icra etmək, yeni kanalları inşa etmək və su anbarlarını yaratmaq strateji əhəmiyyətli bir məsələdir. Taxtakörpü su anbarının yaradılması ilə biz bu strateji hədəfə çatırıq. Bizim sularımız Kür çayından, Araz çayından, Samur çayından gəlir ki, bu çaylar öz mənbəyini başqa ölkələrdən başlayır. Beləliklə, su təhlükəsizliyi bizim üçün strateji əhəmiyyətli məsələdir və gələcəkdə hər bir ölkə üçün su ehtiyatları strateji dəyər olacaqdır".

Göründüyü kimi, hələ bir neçə il öncə su təhlükəsizliyinin nə qədər prioritet məsələ olduğunu ölkə Prezidenti çox uzaqgörənliklə qeyd etmişdir.

Ölkəmizin su təhlükəsizliyi sahəsində strateji əhəmiyyətə malik olan Taxtakörpü su anbarının istifadəyə verilməsi nəticəsində son illərdə yay mövsümündə Samur sərhəd çayında su ehtiyatlarının kəskin azalmasına baxmayaraq, anbarda toplanan su hesabına Bakı şəhərinin və Abşeron yarımadasının əhali, sənaye və kənd təsərrüfatı üzrə su təminatında yarana biləcək çətinliklərin qarşısının alınması mümkün olmuşdur. Taxtakörpü su anbarı zonasında ümumilikdə nəzərdə tutulan 30 min hektara yaxın yeni suvarılacaq torpaqlarda görülmüş meliotrativ tədbirlər nəticəsində 22 min hektarı Aqroparklar və iri təsərrüfatlar tərəfindən əkin dövriyyəsinə cəlb edilmişdir. Eyni zamanda "Şabran Aqropark"a məxsus 1738 hektar torpaq sahəsi suvarma suyu ilə təmin edilmiş və bu torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılması işləri davam etdirilmişdir.

Möhtərəm Prezidentimiz İlham Əliyevin iştirakı ilə açılmış Şəmkirçay su anbarı zonasında əkin sahələrini suvarma suyu ilə təmin edəcək 60,5 km uzunluğunda magistral kanalların tikintisi işləri başa çatdırılmışdır. Şəmkirçay su anbarında yığılan 723 milyon kubmetr su hesabına Şəmkir, Samux və Göygöl rayonlarının 35 min hektara yaxın əkin sahəsinin su təminatı yaxşılaşdırılmışdır. Şəmkir və Göygöl rayonlarının 4 min hektar, eləcə də "Şəmkir Aqropark"ın 543 hektar yeni suvarılan sahələri suvarma suyu ilə təmin edilmişdir.

Şəmkirçay su anbarından Şəmkir və Göygöl rayonlarının əkin sahələrinə suvarma suyunun verilməsi üçün paylayıcı kanalların, eləcə də Goranboy rayonunun əkin sahələrini suvarma suyu ilə təmin etmək məqsədilə uzunluğu 27,9 km olan Şəmkir-Samux-Goranboy suvarma magistral kanalının 2-ci növbəsinin tikintisi tamamlanmışdır. Bununla Samux və Goranboy rayonlarının 31000 hektar (ondan 8231 hektarı yeni suvarılacaq torpaqlardır) sahəsinə suvarma suyu çatdırılmışdır. Goranboy rayonunun daha 18 min hektardan çox sahəsinə suyun çatdırılması üçün kanalda tikinti işləri davam etdirilir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 19 avqust 2017-ci il tarixində Samux və Goranboy rayonlarının əkin sahələrinə suvarma suyunun verilməsi mərasimlərində iştirak etmişdir. Sovetlər Birliyi dövründən tikintisi yarımçıq qalmış Tovuz və Şəmkir rayonlarının 20000 hektara yaxın əkin sahələrinin su təminatının yaxşılaşdırılmasına və yeni suvarılacaq torpaqların istifadəyə verilməsinə imkan yaradan və ümumi sututumu 20 milyon kubmetr olan Tovuzçay su anbarının inşası 2016-cı ildə başa çatdırılmışdır. Sabirabad rayonu ərazisində "H" kanalının 7,8 km hissəsinin beton məcrada qurğularla birlikdə tikintisi başa çatdırılmışdır. Bununla 1-ci mərhələdə 4 min hektar əkin sahəsinin su təminatı yaxşılaşdırılmış və 200 hektar yeni suvarılan torpaq sahəsi suvarma suyu ilə təmin edilmişdir. Eyni zamanda Sabirabad rayonunun qış otlaqlarında 1-ci mərhələdə 5000 hektar yeni torpaq sahəsinə, eləcə də Yuxarı Mil kanalında tikinti işləri davam etdirilərək Ağcabədi rayonunda 2700 hektar sahəyə suvarma suyu çatdırılmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 24 sentyabr 2017-ci il tarixdə Neftçala magistral kanalında görülən işlərlə tanış olmuş və Kür çayından 1-ci mərhələdə rayonun 7770 hektar yeni suvarılacaq və 970 hektar mövcud əkin sahələrinə suvarma suyunun verilməsi mərasimində iştirak etmişdir.

# etibarlı şəkildə təmin edilir

Aqroparkların və iri təsərrüfatların yaradılması məqsədilə Araz çayının yeni qolu vasitəsilə Saatlı (24325 ha), İmişli (5812 ha) və Biləsuvar (9356 ha) rayonlarının 52638 ha qış otlaq sahələrinin suvarma suyu ilə təmin edilməsi üçün 54,2 km uzunluğunda torpaq məcralı kanalın tikinti işləri üzərindəki hidrotexniki qurğularla birlikdə tamamlanmışdır. Goranboy və Samux rayonlarında yaradılan aqroparkların 4700 ha sahəsinə Şəmkir-Samux-Goranboy suvarma magistral kanalından suvarma suyunun çatdırılması üçün 1-ci mərhələdə 12,1 km suvarma boru kəmərinin və həcmi 100 min kubmetr olan beton üzlüklü su hovuzunun tikintisi başa çatdırılmışdır. Şabran rayonu ərazisində "Şabran Aqropark" MMC-yə məxsus 1738 hektar sahəyə suvarma suyunun verilməsi üçün tutumu 150 min kubmetr olan beton üzlüklü su hovuzunun tikintisi tamamlanmış, bu torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılması üçün işlər davam etdirilir. Qax rayonunda yaradılan Aqroparka məxsus 1550 hektar torpaq sahəsinin 1-ci mərhələdə 665 hektar ərazisinə suvarma suyu çatdırılmışdır.

Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin 480 ha və ona bitişik Füzuli rayonunun Mirzənağılı kəndinin 200 ha əkin sahəsinin suvarma suyu ilə təmin edilməsi ilə əlaqədar nasos stansiyasının, təzyiqli boru kəmərinin tikintisi aparılmışdır. Suvarma su mənbəyi yaradılan ərazilərdə investorlar və torpaq mülkiyyətçiləri tərəfindən mütərəqqi suvarma texnikası tətbiq edilməklə və meliorativ tədbirlər aparılmaqla intensiv texnologiyalar əsasında yüksək kənd təsərrüfatı məhsulları istehsalına geniş imkanlar yaranacaqdır. Eyni zamanda respublika iqtisadiyyatının inkişafında böyük əhəmiyyət kəsb edəcək daha bir nəhəng infrastruktur layihəsinin yuxarı Şirvan kanalının yenidən qurulmasının xarici məsləhətçilər cəlb edilməklə ilkin texniki-iqtisadi əsaslandırma sənədləri hazırlanmışdır. Şirvan zonasına yeni həyat verəcək bu layihə 10 rayonun 125 min hektardan çox əkin sahəsinin su təminatının yaxşılaşdırılması və 106 min hektar yeni suvarılan torpaqların dövriyyəyə verilməsi ilə ümumilikdə 231 min hektar torpaq sahəsinin suvarma suyu ilə təmin edilməsi, eləcə də regionda ekoloji mühitin yaxşılaşdırılması, Hacıqabul gölündə təhlükəli ekoloji vəziyyətin qarşısının alınması üçün imkan yaradacaqdır.

Ümumiyyətlə, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 23 meliorasiya və su təsərrüfatı obyektlərinin təməlqoyma, işlərin gedişi ilə tanışlıq və açılış mərasimlərində iştirak etmişdir ki, bu da onun bu sahəyə olan diqqət və qayğısının təzahürüdür. Qarşıya qoyulmuş vəzifələrin icrası istiqamətində ASC tərəfindən meliorasiya tədbirlərinə ayrılan vəsait hesabına meliorasiya və irriqasiya sistemlərinin normal istismarının təşkili, suvarılan torpaqların su təminatının və meliorativ vəziyyətinin yaxşılaşdırılması, sel və daşqın sularına qarşı mübarizə sahəsində də 2019-cu ildə konkret tədbirlər həyata keçirilmişdir.

2019-cu ilin mürəkkəb təbii-iqlim şəraitinə baxmayaraq, öz daxili imkanlarını səfərbər edərək ASC üzərinə düşən vəzifələri yerinə yetirmiş, balansında olan irriqasiya və meliorasiya sistemlərinin, hidrotexniki qurğuların istismarını təmin etmiş, müvafiq təmir-bərpa işlərini həyata keçirmişdir. Bu il ərzində Kür, Araz və onlara qovuşan dağ çayları boyunca salınmış torpaq mühafizə bəndlərinin 159,2 km-lik hissəsində möhkəmləndirmə işləri görülmüş və 33231,0 kbm həcmində daş və beton kompozitləri ilə sahilbərkitmə işləri yerinə yetirilmişdir. Suvarma sistemlərində və kollektor-drenaj şəbəkələrində 70,0 mln.kbm həcmində lildən təmizləmə işləri aparılmış, 17500 km suvarma, 3350 km kollektor-drenaj sistemləri təmizlənmiş, 41,1 km suvarma və 30,6 km kollektor-drenaj şəbəkələri, 5847 hidrotexniki qurğu, 5676 subartezian quyusu, 315 nasos stansiyası təmir edilmişdir.

Həyata keçirilmiş təmir-istismar və tikinti işləri nəticəsində, eləcə də 80500 hektarda aratın, 23000 hektarda təkrar əkinlərin aparılması və digər aqrotexniki tədbirlər hesabına suvarılan torpaqlarda qrunt sularının səviyyəsi aşağı düşmüş, duzların yuyulması prosesi getmiş, 2018-ci illə müqayisədə şorlaşmış torpaq sahələri 4325 hektar azalmışdır. Çay məcralarında 19,9 mln.kbm həcmində məcratəmizləmə işləri aparılmış, 7,4 min kbm şax-daş və faşın, 3,3 min kbm qabion bəndlər quraşdırılmış və daş-beton bəndlərdə 32,7 min kbm həcmində təmir işləri yerinə yetirilmişdir. Əkin sahələrinin su təminatının və meliorativ vəziyyətinin daha da yaxşılaşdırılması məqsədilə ASC tərəfindən respublika üzrə sudan istifadə planı, magistral kanallar üzrə su limitləri, respublikanın çayları üzrə suvarma dövründə rayonlararası su bölgüsü cədvəlləri hazırlanaraq təsdiq edilmişdir. Bütün istismar təşkilatlarında gecə-gündüz növbətçilik yaradılmış, vegetasiya suvarmalarının mütəşəkkil həyata keçirilməsi, sudan səmərəli və qənaətlə istifadənin təmin edilməsi və su limitlərinə nəzarətin gücləndirilməsi məqsədilə ASC-nin mütəxəssisləri ayrı-ayrı obyektlərə təhkim edilmiş, çayların gursululuq dövründə su anbarlarının doldurulması və yarana biləcək sel və daşqın sularının maneəsiz axıdılması üçün təxirəsalınmaz tədbirlər həyata keçirilmişdir. Vegetasiya suvarması dövrünün əvvəlinə əsas su anbarlarında 14,5 mlrd. kbm. həcmində su toplanmışdır.

Kənd təsərrüfatı bitkilərinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması ilə bağlı 2019-cu il üçün Fəaliyyət planı hazırlanmış və icrası təmin edilmişdir. Görülmüş tədbirlər nəticəsində suvarılan torpaq sahələri əsasən suvarma suyu ilə təmin edilmişdir. Respublika üzrə bütün kənd təsərrüfatı bitkiləri 1400,5 min hektar sahədə orta hesabla 3,3 dəfə, o cümlədən taxıl 547903 hektarda 2,2 dəfə, pambıq 101268 hektarda 3,2 dəfə, tütün 3053 hektarda 4,4 dəfə, yem bitkiləri 418278 hektarda 4,0 dəfə, bostan-tərəvəz 65005 hektarda 5,1 dəfə, çoxillik əkmələr 121523 hektarda 3,7 dəfə və həyətyanı sahələr 143409 hektarda 4,4 dəfə suvarılmışdır. 2019-cu ildə havaların kəskin quraq və isti keçməsi ilə əlaqədar su mənbələrində yaranmış su qıtlığı səbəbindən bir sira hallarda kollektor-drenaj şəbəkələrinin sularından kanalların suları ilə qarışdırılaraq suvarmada istifadə edilmişdir. Bütün suvarma mənbələrindən 9,2 mlrd. kbm su götürülmüş və su istifadəçilərinə 6,55 mlrd. kbm su verilmişdir. Torpaq eroziyasına və su itkilərinə qarşı mübarizə məqsədilə kanallar, kollektorlar və su təsərrüfatı obyektləri boyunca 160 hektar sahədə yeni meşə zolaqları salınmışdır.



ASC-nin sənaye müəssisəsində 2019-cu ildə hidrotexniki qurğuların təmirində və yenidən qurulmasında istifadə olunan müxtəlif adda 140,0 ton metalkonstruksiya, 34 ədəd elektrik mühərrikləri təmir edilmiş, müxtəlif sazlama-quraşdırma və servis xidmətləri həyata keçirilmişdir.

Dünya Bankının krediti və Azərbaycan tərəfinin payı hesabına həyata keçirilən "Milli Su Təchizatı və Kanalizasiya Xidmətləri üzrə İkinci Layihə" çərçivəsində respublikanın 2 rayonunda (Şabran və Siyəzən) içməli su təchizatı və kanalizasiya sistemləri infrastrukturunun bərpası və tikintisi işləri davam etdirilmişdir. Layihə çərçivəsində Şabran rayonunda təmizləmə gücü gündə 10000 kbm və Siyəzən rayonunda təmizləmə gücü gündə 8700 kbm olan çirkab su təmizləmə qurğularında bütün mexaniki və elektromexaniki avadanlıqlar quraşdırılmış və hər iki qurğuda tikinti işləri tamamlanmışdır. Layihə üzrə respublikanın 8 rayonunda (Şabran, Siyəzən, Ağsu, İsmayıllı, Masallı, Cəlilabad, Lerik və Yardımlı) tikinti işləri tam başa çatdırılmışdır.

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə dövlət büdcəsindən dövlət əsaslı vəsait qoyuluşu üçün ayrılmış vəsaitlər hesabına "Samur-Abşeron suvarma sisteminin yenidən qurulması" layihəsinə daxil olan "Şabran, Siyəzən və Xızı rayonları ərazisində mövcud suvarılan torpaqların su təminatının yaxşılaşdırılması və yeni suvarılan torpaqların istifadəyə verilməsi" layihəsi üzrə Şabran rayonu ərazisində "Şabran Aqropark" MMC-yə məxsus 1738 ha yeni suvarılan torpaq sahəsinə əlavə su verilməsi üçün 9,060 km (diametri 900-700 mm) uzunluğunda boru kəmərinin çəkilməsi üzrə işlər yerinə yetirilmişdir.

2019-cu ildə respublikanın ərazisində aqroparkların yaradılması məqsədilə Şəki və Oğuz rayonları ərazisində yaradılacaq aqroparkın 12300 hektar yeni suvarılacaq torpaq sahəsində salınacaq qoz-fındıq ağacı bağlarının suvarma suyu ilə təmin edilməsi üçün Oğuz rayonu üzrə 2500 kbm həcmində su hovuzunun tikintisi tamamlanmış, 3,2 km uzunluğunda təzyiqli boru kəməri çəkilmiş, Şəki rayonu üzrə Baş Suqəbuledici qurğunun, 5,0 km magistral basqılı boru kəmərinin, 1,24 km təzyiqli boru kəmərinin tikintisi üzrə işlər tamamlanmışdır. Xaçmaz rayonunda Aqroparkın 956 ha torpaq sahələrinin suvarma suyu ilə təmin edilməsi ilə bağlı 10,39 km uzunluğunda kanalların qurğularla birlikdə yenidən qurulması və 2 ədəd 50 min kbm həcmində su hovuzunun tikintisi üzrə işlər aparılmışdır.

Ağcabədi rayonunda yaradılan aqroparkın 850 ha yeni suvarılan torpaq sahəsinə suvarma suyunun verilməsi üçün Yuxarı Qarabağ kanalı üzərində nasos stansiyasının və 2,0 km uzunluğunda basqılı boru kəmərinin, Goranboy rayonunun Erkəc kəndi ərazisində yaradılacaq aqroparkın 400 ha yeni suvarılan sahəsinin suvarma suyu ilə təmin edilməsi üçün Kürəkçay çayı üzərində sugötürən qurğunun, nasos stansiyasının, 1,88 km uzunluğunda basqılı boru kəmərinin, 5000 kbm həcmində basqılı hovuzun və 10 kv-luq EHX-nin tikintisi üzrə işlər görülmüşdür. Tovuz rayonunun Düz Qırıqlı kəndində yaradılan aqroparkın 550 ha əkin sahələrinin suvarma suyu ilə təmin edilməsi üçün Kür çayı üzərində nasos stansiyasının, basqılı boru kəmərinin və Valley tipli yağışyağdırıcı qurğularının qurulması üzrə layihə-smeta sənədləri hazırlanaraq tikinti işlərinə başlanılmışdır. Eləcə də Qobustan rayonunun Qaracüzlü kəndi yaxınlığında yaradılmış aqroparka məxsus 998 ha torpaq sahəsinin suvarma suyu ilə təmin edilməsi üçün Qozluçay çayı üzərində suqəbuledici qurğunun və 11 km uzunluğunda qapalı boru kəmərinin qurğularla birlikdə tikintisi üzrə layihə-smeta sənədləri hazırlanmışdır.



Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən, Ələt-Astara magistral avtomobil yolunun Salyan, Neftçala, Biləsuvar və Cəlilabad rayonlarından keçən hissəsində yerləşən 20000 hektar qış otlaq sahələrində meliorativ tədbirlərin layihə sənədlərinin hazırlanmasına başlanılmışdır. Eyni zamanda Şamaxı rayonunun 2500 ha əkin sahəsinin su təminatının yaxşılaşdırılması üçün 8 kiçik sututarında zəruri təmir-bərpa işlərinin aparılması məqsədilə layihə sənədləri hazırlanmış və 1 ədəd sututarda tikinti işlərinə başlanılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 12 fevral 2019-cu il tarixli 952 nömrəli Sərəncamı ilə respublikanın 41 şəhər və rayonunun 254 yaşayış məntəqəsində 8362 ha (ondan 871 ha yeni suvarılan torpaqlardır) əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün 300 ədəd subartezian quyularının qazılması üçün layihə-smeta sənədləri hazırlanmış və qazma işləri tamamlanmışdır. Azərbaycan Respublikası Prezidentinin müvafq sərəncamı ilə Ağdam rayonunda 20 yaşayış məntəqəsinin 1050 ha torpaq sahəsinin suvarılması üçün 35 ədəd subartezian quyusunun 14 ədədində qazma işləri 2018-ci ildə həyata keçirilmiş, 21 quyuda isə qazma işləri 2019-cu ildə başa çatdırılmışdır. Azərbaycan Respublikası Prezidentinin 31 iyul 2019-cu il tarixli 1367 nömrəli Sərəncamı ilə Ağcabədi rayonunda 12 ədəd və Goranboy rayonunda 55 ədəd qazılması nəzərdə tutulmuş quyuların layihə sənədləri hazırlanmış, Ağcabədi rayonunda 12 ədəd və Goranboy rayonunda 12 ədəd subartezian quyularının qazılması başa çatdırılmışdır.

Cənab Prezidentin qeyd etdiyi kimi, görülən bütün işlər və əldə edilmiş nəticələr deməyə əsas verir ki, Azərbaycan bu gün uğurla, sürətlə inkişaf edən ölkədir. Ancaq biz əldə edilmiş uğurlarla kifayətlənməməliyik, daim qabağa baxmalıyıq və növbəti illərdə görüləcək işlərlə bağlı fəaliyyətimizi düzgün qurmalıyıq.

2020-ci ildə ASC meliorasiya və su təsərrüfatı obyektlərinin tikintisi, yenidən qurulması işlərinin davam etdirilməsi üzrə təkliflərini aidiyyəti qurumlara təqdim etmişdir. Taxtakörpü və Şəmkirçay su anbarları zonalarında magistral və paylayıcı suvarma kanallarının tikintisi işləri davam etdiriləcəkdir.

Respublikanın şəhər və rayonlarının əkin sahələrinin, əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təmin olunması və əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün 443 ədəd subartezian quyusunun qazılması, eləcə də respublikanın yaşayış məntəqələrinin, əkin sahələrinin və infrastruktur obyektlərinin sel və daşqın sularının zərərli təsirindən mühafizəsi və qəza vəziyyətinin aradan qaldırılması tədbirləri üzrə Kür-Araz və dağ çaylarında sel və daşqın sularının zərərli təsirlərinin qarşısının alınması məqsədilə sahilbərkitmə işlərinin aparılması nəzərdə tutulur.

Möhtərəm Prezident İlham Əliyevin müvafiq fərman və sərəncamları ilə respublikamızda pambıqçılığın, taxılçılığın, baramaçılığın, tütünçülüyün, üzümçülüyün, sitrus meyvələrinin və digər kənd təsərrüfatı məhsullarının istehsalının inkişaf etdirilməsi ilə əlaqədar olaraq təsdiq edilmiş Dövlət proqramları və tədbirlər planlarında, regionların sosial-iqtisadi inkişafı Dövlət proqramında, Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsində nəzərdə tutulmuş meliorasiya və su təsərrüfatı sahəsi üzrə geniş tədbirlərin icrası 2020-ci ildə də davam etdiriləcəkdir.

Belə ki, cari ildə istismar tədbirlərinə ayrılan vəsait hesabına respublika üzrə 18000 km suvarma kanallarının, 3500 km kollektor-dren şəbəkələrinin lildən təmizlənməsi, 6500 ədəd hidrotexniki qurğunun, 6000 ədəd subartezian quyusunun və 320 ədəd nasos stansiyasının təmiri işlərinin həyata keçirilməsi planlaşdırılır. 2020-ci ildə qazılacaq 443 ədəd subartezian quyularından 204 ədədi pambıqçılıq rayonlarında nəzərdə tutulmuşdur. Çay məcralarında 21,0 milyon kbm həcmində məcratəmizləmə işlərinin aparılması və respublika üzrə 1 milyon 400 min hektar sahədə kənd təsərrüfatı bitkilərinin su ilə təminatı və s. işlər həyata keçiriləcəkdir.

Hamıya məlumdur ki, hazırda dünyada iqlim dəyişiklikləri baş verir: Azərbaycanın da üzv olduğu Ümumdünya Su Şurasının və Ümumdünya Meteorologiya Təşkilatının məlumatına görə, qarlı günlərin sayı azalır, buzlaqlar əriməkdə davam edir, quraqlıq dövrü uzanır. Ölkəmizdə də isti günlər artmaqla, şaxtalı günlərin sayı azalır, çaylarımızı qidalandıran qar örtüyü dağlarda azalır. Ona görə də 2020-ci və növbəti illərdə də suya həssaslıqla yanaşılmalıdır. Çünki su təbiətin bizə bəxş etdiyi sərvətdir. Hazırda bir çox ölkələr susuzluqdan çox əziyyət çəkirlər. Biz də gündəlik həyatımızda sudan səmərəli istifadə etməliyik.

Bu baxımdan Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin yanında "Pambıqçılıq mövsümünün yekunları və 2020-ci ildə görüləcək tədbirlər" ilə bağlı 29 dekabr 2019-cu ildə keçirilən müşavirədə suyun səmərəli istifadəsi ilə bağlı tədbirlər planı hazırlanmasının vacibliyi barədə tapşırıq verilmişdir. Hazırda bu tapşırıqların icrası olaraq, mövcud meliorasiya və su təsərrüfatı fondlarının istismarının və əkin sahələrinin su təminatının yaxşılaşdırılması və su itkilərinin qarşısının alınması, su ehtiyatlarından daha səmərəli istifadə edilməsi üçün sistemlərin təmir-bərpası və müasir tələblər səviyyəsində yenidən qurulması, kiçik su anbarlarının yaradılması daxil olmaqla bütövlükdə orta müddətli, uzunmüddətli meliorativ tədbirlər planının yenidən tərtib edilməsinə başlanılmışdır.

Cənab İlham Əliyevin uzaqgörən siyasətinin davamı olaraq dövlət başçısı "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı tədbirlər haqqında" 2020-ci il 15 aprel tarixli Sərəncam imzalamışdır. Sərəncama əsasən ölkə ərazisində su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi, su təsərrüfatının idarə olunmasının təkmilləşdirilməsi və bu sahədə fəaliyyətin əlaqələndirilməsi məqsədilə Baş Nazirin müavini Şahin Mustafayevin sədrliyi ilə komissiya yaradılmışdır.

Sərəncamın icrasının təmin edilməsi məqsədilə Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-də Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyəti orqanları və komissiyanın digər iştirakçıları ilə birgə koordinasiyalı şəkildə bir sıra kompleks tədbirlər proqramı hazırlanmaqdadır. Proqram ölkə iqtisadiyyatının, əsasən də qeyri-neft sektorunun aparıcı sahələrindən biri olan kənd təsərrüfatının dayanıqlı inkişafında və iqlim dəyişiklikləri şəraitində su təhlükəsizliyinin təmin edilməsi üçün strateji əhəmiyyət kəsb edən meliorasiya və su təsərrüfatı sektorunda görüləcək işləri müəyyənləşdirəcəkdir. Proqramda nəzərdə tutulan tədbirlərin 2020-ci ildən başlayaraq ondan sonrakı dövrlərdə həyata keçirilməsi nəzərdə tutulur. Bu tədbirlər 2025-ci ilədək ortamüddətli və 2030-cu ilədək uzunmüddətli dövrdə iqlim dəyişiklikləri ilə əlaqədar ölkənin su təhlükəsizliyinin təmin edilməsi üçün transsərhəd sulardan asılılığın azaldılması istiqamətində, o cümlədən daxili çaylar üzərində su anbarlarının tikintisi, alternativ sulardan istifadənin genişləndirilməsi, suya qənaətedici suvarma texnikası və texnologiyalarının tətbiqi, suvarma suyundan səmərəli istifadə mexanizminin hazırlanması, su itkilərinə, çayların sel və daşqın sularının zərərli təsirinə qarşı mübarizə tədbirlərinin aparılması, eyni zamanda kadr potensialının gücləndirilməsi hesabına 2030-cu ildə aşağıdakılara nail olmaq hədəflənməkdədir:

- Rusiya Federasiyası, İran İslam Respublikası və Gürcüstanla transsərhəd su ehtiyatlarının və obyektlərinin birgə idarə edilməsi üzrə ikitərəfli əməkdaşlıq davam etdirilərək və bu sahədə daha sıx əməkdaşlıq yaradılmasına, İran İslam Respublikası ilə Araz çayı üzərində inşa olunmuş "Xudafərin" və "Qız qalası" hidroqovşaqlarının tikintisi və birgə istismarı üzrə əməkdaşlıq davam etdirilərək bu hidroqovşaqlarda toplanan suların və istehsal olunan enerjinin birgə istifadəsinin həyata keçirilməsinə, suvarma suyundan səmərəli istifadə edilməsi və su itkilərinin qarşısının alınması məqsədilə müasir suvarma texnikası və texnologiyasının tətbiq sahəsinin suvarılan torpaqların 60 %-dən çoxunu əhatə etməsinə, ümumi sututumu 1 milyard m3 olan 16 ədəd su anbarının layihə sənədlərini hazırlamaqla tikintisinə başlanılması, tikintiləri yarımçıq qalmış 2 ədəd su anbarında işlərin tamamlanması hesabına 124 milyon m3 su yığılmasının təmin edilməsinə, mütərəqqi suvarma texnikasının və texnologiyasının tətbiqinə əsaslanan iri təsərrüfatların və aqroparkların yaradılması. Görüləcək bu və bir sıra əlavə tədbirlər ardıcıllıqla davam etdiriləcəkdir.

*Qeyd edilənləri nəzərə alaraq onu deyə bilərik ki, həyata keçirilmiş və gələcək onilliklərdə nəzərdə tutulan tədbirlər dövlət başçısı İlham Əliyevin meliorasiya sahəsinə diqqət və qayğısının əyani təzahürüdür.*

***Əhməd ƏHMƏDZADƏ,***
***Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri***



# Qabaqlayıcı tədbirlər səmərə verir

## *Operativ Qərargah:* "Azərbaycanın dövlət sərhədində giriş-çıxışa tətbiq olunan məhdudiyyət mayın 31-dək uzadılır"

Hazırda dünya dövlətləri tərəfindən yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirləri davam edir. Həyata keçirilən tədbirlər çərçivəsində əksər dövlətlər öz sərhədlərində giriş-çıxışa müvəqqəti olaraq məhdudiyyətin tətbiqi barədə qərar verərək beynəlxalq uçuşları təxirə salmışdır. Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildiriblər ki, COVID-19 pandemiyası ilə bağlı dünyadakı vəziyyət təhlil edilib və virusun ölkə ərazisində geniş yayılmasının qarşısının alınması məqsədilə yükdaşımaları və çarter reysləri istisna olmaqla, Azərbaycan Respublikası ərazisinə yerüstü və hava yolu ilə giriş-çıxışa tətbiq olunan məhdudiyyət 2020-ci il mayın 31-dək uzadılıb.

## 3900 aztəminatlı ailəyə 68 ton ərzaq sovqatı göndərilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev respublikamızda koronavirusa qarşı mübarizə tədbirlərinə başlanıldığı ilk günlərdən ölkə vətəndaşlarının sağlamlığının, sosial təminatının qorunmasını əsas vəzifə kimi müəyyənləşdirib, bütün dövlət qurumlarına diqqəti bu sahəyə yönəltməyi tapşırıb.



Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK) da Prezident İlham Əliyevin koronavirus pandemiyası ilə bağlı həyata keçirdiyi tədbirlərdə yaxından iştirak edir.

AZƏRTAC xəbər verir ki, sosial dəstək tədbirləri çərçivəsində Azərbaycan həmkarlar ittifaqları təşkilatları qısa müddət ərzində 1 milyon 600 min manatdan çox vəsait xərcləyib. İndiyədək 17 mindən artıq aztəminatlı ailəyə ərzaq yardımları göstərilib, 631 min 600 manat məbləğində vəsait bu məqsədlər üçün xərclənib, 148 min manat dəyərində qoruyucu vasitələr alınıb paylanılıb. Həmkarlar ittifaqları Koronavirusla Mübarizəyə Dəstək Fonduna ümumilikdə 398600 manat vəsait köçürüblər.

Bu günlərdə AHİK-in İcraiyyə Komitəsi xüsusi yardıma və qayğıya ehtiyacı olan aztəminatlı ailələrə, təqaüdçülərə ərzaq yardımlarının paylanmasını nəzərdə tutan yeni qərar qəbul edib. Bu məqsədlə respublikanın 76 şəhər və rayonunda yaşayan 3900 aztəminatlı ailəyə ərzaq sovqatının paylanılması qərara alınıb. Ümumi həcmi 68 ton olan ərzaq sovqatları hər bir ailə üçün vacib olan gündəlik tələbat mallarından ibarətdir.

Aprelin 29-da Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının təşkil etdiyi maşın karvanı ərzaq sovqatlarını ünvanlarına çatdırmaq üçün respublikanın şəhər və rayonlarına yola düşüb. Azərbaycanın bütün bölgələrini əhatə edəcək bu aksiyada yerlərdəki həmkarlar ittifaqı fəalları da iştirak edəcəklər.

AHİK-in sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev jurnalistlərə müsahibəsində bildirib ki, Azərbaycan Prezidentinin atdığı addımlar vətəndaşlarımızın sağlamlığının və rifahının qayğısına qalmağın dövlət başçısı üçün ən ümdə məsələ olduğunu bir daha təsdiq etdi. Bu bəladan xilas olmaq üçün dövlətimiz bütün imkanları səfərbər edib. O qeyd edib ki, koronavirus pandemiyası şəraitində həmkarlar ittifaqları təşkilatları tərəfindən maddi və mənəvi yardımların göstərilməsi gələcəkdə də davam etdiriləcək.

## Fövqəladə Hallar Nazirliyi tərəfindən dezinfeksiya işləri davam etdirilir





Azərbaycan Respublikası ərazisində koronavirusun (COVID-19) yayılma təhlükəsinin qarşısının alınması məqsədilə dövlət başçısı İlham Əliyevin göstərişi əsasında kompleks effektli tədbirlər həyata keçirilir.

Fövqəladə Hallar Nazirliyinin (FHN) Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu tədbirlər çərçivəsində, Nazirlər Kabineti yanında Operativ Qərargahın qəbul etdiyi qərarlara uyğun olaraq, nazirlik koronavirus infeksiyasına yoluxma hallarına yol verilməməsi və onun qarşısının alınması, bu sahədə aparılan müvafiq profilaktik tədbirlərin effektivliyinin yüksəldilməsi məqsədilə aidiyyəti üzrə fəaliyyətini davam etdirir.

Martın 28-dən etibarən FHN-in Dövlət Yanğından Mühafizə Xidmətinin müvafiq qüvvələri tərəfindən Operativ Qərargahın Bakı şəhəri üzrə müəyyən etdiyi obyektlərdə dezinfeksiya tədbirləri yerinə yetirilir, mütəmadi olaraq müxtəlif məkanlarda görülən işlər çərçivəsində ərazilər xüsusi məhlulla dezinfeksiya edilir.

Qeyd edək ki, dezinfeksiya işlərinin davam etdirilməsi nəzərdə tutulur.

## Azərbaycanda koronavirusla bağlı müsbət dinamika müşahidə olunur

### Bu, ölkəmizdə ilk günlərdən görülən effektiv tədbirlərin real bəhrəsidir

Dünyada koronavirus pandemiyası ilə mübarizə davam edir. Çindən alovlanıb bütün ölkələrə yayılan COVID-19-un qarşısının alınması məqsədilə karantin rejimi, sosial izolyasiya tədbirləri həyata keçirilir.





Azərbaycanda da təhlükəli virusun yox edilməsi istiqamətində ciddi tədbirlər görüldü və bu effektiv tədbirlər qısa müddətdə müsbət təsirini göstərməyə başladı.

Elə buna görə də aprelin 27-dən etibarən koronavirus təhlükəsi ilə əlaqədar ölkə ərazisində tətbiq olunmuş məhdudiyyətlərin bir qismi yumşaldılıb. Nazirlər Kabineti yanında Operativ Qərargahın məlumatında bildirilir ki, COVID-19 virusu ilə bağlı hazırkı sanitar-epidemioloji vəziyyət, xüsusilə də xəstəliyin yayılma dinamikası və coğrafiyası, karantin zonalarındakı şəxslərin sıxlığı, onlar arasında virusa yoluxma halları təhlil edilib və 27 aprel 2020-ci il tarixindən məhdudiyyətlərin bir qisminin yumşaldılmasına qərar verilib.

#### Ölkə Prezidentinə minnətdarlıq məktubları gəlməkdə davam edir

Prezident İlham Əliyev Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Suma Çakrabarti ilə videokonfrans zamanı da səsləndirdi ki, ölkəmiz ilk gündən real vəziyyətə əsaslanan tədbirlər görməyə başladı: "Vəziyyətin düzgün dəyərləndirilməsi və bu böhranla məşğul olunması üçün səmərəli komandanın yaradılması bizim üçün çox vacib idi. Azərbaycana bu virus qonşuluqdan gəldi və bunun qarşısını almaq üçün biz müvafiq addımlar atdıq və qonşu dövlətlərlə razılıq və birgə qərar əsasında sərhədlərimizi bağladıq. Hesab edirəm ki, biz bu qərarı vaxtında və digər ölkələrin bənzər qərarlarından tez verdik və beləliklə, zaman udmuş olduq. Biz görürük ki, bu virusla mübarizədə ən vacib məsələ vaxtdır, çünki heç bir ölkənin səhiyyə sistemi bu qədər böyük sayda yoluxmuş insanların müalicəsinə hazır deyil. Bu səbəbdən vaxtın qazanılması, səhiyyə sistemimizin hazırlanması, mütəxəssis və həkimlərimizin səfərbər edilməsi və düzgün idarəçiliyin qurulması əsas hədəflərimiz oldu".

Azərbaycanda pandemiya ilə mübarizədə mühüm addımların atılmasına, dövlətimizin bütün imkanlarını virusun yayılmasının qarşısının alınmasına və onun fəsadlarının aradan qaldırılmasına yönəltməsinə görə ölkənin müxtəlif guşələrindən Prezident İlham Əliyevə vətəndaşlardan minnətdarlıq məktubları gəlməkdə davam edir.

#### Pandemiyadan sonrakı dövrdə sərnişin axınını təmin etmək üçün fəaliyyət planı

Ötən gündən etibarən Bakı-Sumqayıt istiqamətində sərnişin axınının artması nəzərə alınaraq bütün avtobuslar xəttə çıxarılıb.

Bu barədə "Report"a Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin (DANX) İctimaiyyətlə əlaqələr sektorunun müdiri Nuridə Allahyarova məlumat verib.

Onun sözlərinə görə, təmsil etdiyi qurum pandemiyadan sonrakı dövr üçün fəaliyyət planı hazırlayıb, ölkədəki 56 avtovağzal və avtostansiya sərnişin axınını təmin etmək üçün hazır vəziyyətə gətirilib: "Karantin müddəti bitdikdən sonra regionlardakı sərnişinlərin paytaxta qayıtması ilə kifayət qədər sərnişin sıxlığı gözlənilir. Həmçinin Bakıda qalan sərnişinlərin də regionlara getməsi gözlənilir. Mərhələli şəkildə sərnişinlərin hərəkəti təmin ediləcək".

#### Karantin rejimini pozanlar məsuliyyətə cəlb olunurlar

Koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə tətbiq edilən xüsusi karantin rejiminin pozulmasına görə 28.04.2020-ci il saat 00:00-dan 29.04.2020-ci il saat 00:00-dək olan müddət ərzində respublikanın avtomobil yollarında nəqliyyat vasitələri ilə hərəkətdə olan 806 nəfər Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 211-ci maddəsi ilə inzibati məsuliyyətə cəlb edilib.

Baş Dövlət Yol Polisi İdarəsindən bildirilib ki, ümumilikdə 01.04.2020-ci il tarixindən bu günədək respublikanın, o cümlədən paytaxtın avtomobil yollarında xüsusi karantin rejiminin pozulmasına görə 43177 hərəkət iştirakçısı inzibati məsuliyyətə cəlb edilib.

#### Effektiv koronavirus müalicəsi Azərbaycanda da tətbiq ediləcək

Koronavirus xəstələrinin müalicəsində istifadə olunan konvalesent plazma müalicəsi artıq Azərbaycanda da tətbiq edilməyə başlanılacaq.

TƏBİB-dən verilən məlumata görə, immun plazma müalicəsi COVID-19 diaqnozu ilə müalicə alıb sağalmış xəstələrdən Mərkəzi Qan Bankı tərəfindən toplanan qan plazmasının ağır vəziyyətdə olan xəstələrdə istifadəsi ilə həyata keçirilən müalicə metodudur.

Qurum koronavirus xəstələri üçün kimlərin plazma donoru ola biləcəyi barədə də məlumat verib:

- COVID-19 diaqnozu laborator olaraq təsdiqlənib sonradan sağalan şəxslər;
- klinik olaraq tam sağalmadan ən azı 14 gün sonra, 2 dəfə test nəticəsi neqativ olan şəxslər;
- 18-60 yaş arası könüllülər;
- kişi və hamilə olmayan qadınlar (düşüyü və abort olmamış), həyatının heç bir dövründə qan transfuziyası edilməmiş insanlar.

Uyğun donor qan donorluğunda olduğu kimi, razılıq forması doldurur və müayinə edilir. Daha sonra donordan qan alınaraq laborator testlər həyata keçirilir. Test nəticələri uyğun olan donorlardan aferez metodu ilə plazma alınır. Prosedur 45-60 dəqiqə davam edir. Donordan immun plazma 1 ay ərzində ən çox 3 dəfə, ilk plazmanın götürüldüyü tarixdən etibarən 7-10 gün fasilə ilə alına bilər.

Plazma alınmasının donor üçün hansı riski var:

- bu prosedurun donorun sağlamlığı üçün heç bir riski yoxdur;
- aferez proseduru zamanı qanın ayrılması üçün istifadə olunan setlər birdəfəlik və sterildir;
- setlər qapalı sistem kimi işləyir;
- prosedur zamanı qan cihazla təmas etmir.

Sağalan xəstələrin məlumatları TƏBİB tərəfindən Mərkəzi Qan Bankına göndərilir və plazma donorları Mərkəzi Qan Bankı tərəfindən seçilir. Könüllü donorlar müəyyən olunmuş növbəli sistem əsasında Mərkəzi Qan Bankına dəvət olunur. Gəlmə imkanı olmayan könüllü donorlar üçün Mərkəzi Qan Bankı tərəfindən gəliş-gedişləri təmin olunur. Xəstəxanadan gələn tələblərə əsasən plazmalar göndərilir. Plazma istəyi xəstənin yaxını və ya xəstənin özü tərəfindən edilə bilməz.

Məlumatda o da bildirilir ki, bu müalicə tam ödənişsizdir, bütün xərclər TƏBİB tərəfindən qarşılanır.

#### Dünyanın koronavirus mənzərəsi

Ümumdünya Səhiyyə Təşkilatının yaydığı məlumatda bildirilir ki, son statistikaya görə, dünyada 3186694 nəfər yeni növ koronavirusa yoluxub, 225529 nəfər isə bu ölümcül virusun qurbanına çevrilib. Son gün ərzində 50186 insanda koronavirus aşkarlanıb, ölənlərin sayı isə 7716 nəfər artıb.

Ən çox yoluxma və ölüm halları Avropa regionunda qeydə alınıb - 1345389 yoluxma və 132373 ölüm. Sutka ərzində burada yoluxanların sayı 22683, ölənlərin sayı isə 5951 nəfər artıb.

Şimali və Cənubi Amerikada virusa yoluxanların ümumi sayı 1290428 nəfər təşkil edir, indiyədək 73292 nəfər ölüb.

ÜST-ün son məlumatına görə, ən çox yoluxanlar ABŞ-dadır - 1048834 nəfər. Onun ardınca İspaniya (236899), İtaliya (203591), Fransa (165911), Böyük Britaniya (165221) və Almaniya (160479) gəlir.

#### Metronun fəaliyyəti karantin davam etdiyi dövrdə bərpa olunarsa...

"Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin Mətbuat xidmətinin rəhbəri Bəxtiyar Məmmədov bildirib ki, metro stansiyaları fəaliyyətini bərpa edəcəyi təqdirdə sərnişinlərə sosial məsafə saxlamaqla bağlı mütəmadi xəbərdarlıqlar olunacaq. Onun sözlərinə görə, bununla bağlı metroda sərnişindaşıma fəaliyyəti dayandırılana qədər də tövsiyələr olunub: "Bakı Metropoliteninin bütün stansiyalarında sosial məsafə saxlamaq barədə sərnişinlər mütəmadi məlumatlandırılıb. Əgər metronun fəaliyyəti karantin davam etdiyi dövrdə bərpa olunarsa, bu kimi müraciətlər, maarifləndirmə və tövsiyə xüsusiyyətli bir sıra tədbirlər davam etdiriləcək. Həmçinin metro nəqliyyatında mümkün olan bir sıra xəbərdaredici əyani nümunələr də tətbiq edilə bilər. Sosial məsafənin qorunmasının təşkili metropolitendə digər yerlərdə olduğundan çox da fərqlənmir. İctimai nəqliyyatda, o cümlədən metroda da sosial məsafənin qorunmasına riayət edilməsi əsasən sərnişinlərdən asılı olan məsələdir".

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

## *Bəşəriyyət intizarda:* peyvənd nə vaxt hazır olacaq?

### "Müsbət təsiri sübut olunsa, bu, insanları COVID-19-dan xilas edəcək ilk peyvənd növü kimi tarixə düşəcək"

Aylardır Yer üzündəki bütün mübarizələr, savaşlar, rəqabətlər, xəstəliklər arxa plana keçib. İndi ölkələri, dövlətləri, xalqları maraqlandıran bir ortaq problem var. İnsanoğlu yalnız bir xəstəliklə mübarizəyə qalxıb və savaş aparır. Ölkə, dövlət, sərhəd, millət, varlı-kasıb tanımayan taclı düşmən ilə...

Aylardır dünya tibbi, müxtəlif ölkələrin elm adamları bu yeni bəlanı "susdurmaq" üçün səfərbər olublar. Bu ilin yanvarında Çin alimləri COVID-19-un genomunu açıqladıqdan sonra əczaçılıq şirkətləri, laboratoriyalar, ayrı-ayrı alimlər, həkimlər koronavirusa qarşı peyvənd axtarışına başlayıblar. O vaxtdan bəri hamını demək olar ki, bir sual maraqlandırır: Peyvənd nə vaxt hazır olacaq?

Hələ fevral ayında Fransanın Paster İnstitutunun elm adamları dünyanı qorxuya salan virusun müalicəsi üçün fəaliyyətə başladıqlarını bildirdilər. İnstitutun elm adamı Kristope Denfert jurnalistlərə açıqlamasında peyvəndin qarşıdakı 20 ay ərzində hazır olacağını dedi. Bununla hər kəsin sevinci elə qursağında qaldı. Axı bu nə az, nə çox, təxminən 2 il gözləmək deməkdir.

#### Koronavirusa qarşı peyvənd olunan ilk insan

Bundan haradasa 1 ay sonra ABŞ-da koronavirusa qarşı peyvəndin ilk klinik təcrübəsinə başlanıldı. Kaiser Permanente araşdırma mərkəzinin mütəxəssisləri dörd könüllüyə peyvəndin eksperimental dozasını vurdular. Milli Səhiyyə İnstitutunun maliyyələşdirdiyi, heyvanlar üzərində təcrübə mərhələsi edilməyən bu sınağa eyni vaxtda bir neçə şəxs cəlb edildi. Məqsəd peyvənd nəticəsində immune sisteminin aktivləşdiyinə əmin olmaq idi. Vaksinin istehsalçısı "Moderna Therapeutics" şirkəti bəyan etdi ki, preparat yaxşı yoxlanılmış və müsbət nəticələr vermiş proses vasitəsilə hazırlanıb.

Peyvənd vurulan ilk şəxs iki uşaq anası 43 yaşlı Cennifer Hallerdir. Cennifer Haller tarixə üzərində koronavirus peyvəndinin testi keçirilən ilk insan kimi düşdü. Bu qəhrəman qadın insanlığa xidmət üçün nəticəsi naməlum olan bir sınaq altına girməyə razılıq verdi. Könüllü şəkildə peyvənd olunan Cenniferin ailəsi onun bu qərarına qarşı çıxsa da, o, "mənim də bir köməyim olsun. Bu, vacib bir iş görmək üçün heyrətamiz fürsətdir", - deyərək sınağa qatıldı.

Həftələr sonra "The Telegraph" qəzetinə açıqlama verən Cennifer peyvənd sınağında iştirak etdiyi üçün qürur duyduğunu söyləyib: "Bəli, bir çox risk var idi, ancaq mən bunlara məhəl qoymayıb əlimdən gələni etdim".

C.Haller peyvəndin olduğu ilk gün bir az temperaturunun olduğunu, ikinci gün isə qolunda yüngül ağrı hiss etdiyini, bunun xaricində heç bir şikayətinin olmadığını bildirib. Cəmiyyətin elmi araşdırmalara yardım etməsinin vacibliyini dilə gətirən Haller peyvəndin tapılacağına inandığını söyləyib.

Dünya alimləri bu araşdırmanı diqqətlə izləyirlər. Ekspertlərin dediyinə görə, bu və hazırlanmaqda olan digər peyvəndlərin effekti bir neçə aya məlum olacaq. Gözləyək...

#### Peyvənd sentyabradək hazır olacaqmı?

Oksford Universitetinin vaksinologiya üzrə professoru Sara Gilbert ötən ay "Times" qəzetinə müsahibəsində bildirib ki, Böyük Britaniyada COVID-19 əleyhinə peyvənd bu ilin sentyabrınadək hazır ola bilər. Peyvənd üzərində işləyən tədqiqatçılar qrupuna rəhbərlik edən Gilbertin sözlərinə görə, hər şey ideal formada gedərsə, qeyd edilən vaxtadək peyvənd əldə ediləcək: "Digər növ peyvəndlərlə bağlı əldə etdiyimiz məlumatlara əsaslanarsaq, peyvəndin təsiredici qüvvəsi olacaq. Bu, hər hansı intiusiya deyil. Hər həftə analizlər üçün daha çox məlumat toplayırıq. Düşünürəm ki, uğur qazanmaq ehtimalı 80 faizdir".

Gilbert peyvəndin kliniki təcrübəsinə yaxın vaxtlarda başlayacaqlarını qeyd edib.

Son zamanlar isə COVID-19 peyvəndi ilə bağlı elmi tədqiqatlarda aşkar canlanma hiss olunur. Bu istiqamətdə fərqli mərhələlərdə olan elmi tədqiqatlar da davam edir. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) hazırda dünyanın müxtəlif ölkələrində koronavirusa qarşı vaksinin tapılması istiqamətində ümumilikdə 70 layihə üzərində iş aparıldığını, onlardan üçünün isə ümidverici olduğunu açıqlayıb. Belə ki, Pekin Texnologiya İnstitutu və Honkonqun "CanSino Biologics" şirkətinin üzərində ortaq işlədiyi bir iş test mərhələsinin 2-ci, ABŞ-ın "Moderna" və "Inovio Pharmaceuticals" şirkətlərinin iki işi isə 1-ci fazaya keçib.

#### Koronavirusdan xilas yolu tapılır...

Lakin hazırda elmi arenada ən çox diqqət çəkən və müzakirə olunan məhz Pekində aparılan tədqiqatdır. Keçən həftə elmi ədəbiyyata əlyazma formasında daxil olan tədqiqatda araşdırma yalnız orqanizmin bu peyvəndi necə qəbul edəcəyi istiqamətində deyil, bununla bərabər, peyvəndin COVID-19 virusuna necə təsir edəcəyi barədə aparılıb. Bu araşdırma ölmüş virusdan hazırlanmış peyvəndlər kimi 8 meymun üzərində aparılıb.

Almaniya-Azərbaycan Radioloji və Neyroradioloji Cəmiyyətinin sədri, Köln Universiteti Klinikasının əməkdaşı, tibb elmləri doktoru Nuran Abdullayev araşdırmanın məzmunu, əldə olunan nəticələr barədə danışıb. O bildirib ki, daha öncə bu şəkildə hazırlanan peyvəndlərdən fərqli olaraq burada immun reaksiyanın güclənməsinə və ya onun fonunda ağırlaşmalara rast gəlinmir: "Tədqiqat siçan və dovşanlar üzərində müvafiq uğurlu anticismlərin alınmasının təsdiqindən sonra meymunlar üzərində aparılıb. Meymunlara isə ölmüş virusdan ibarət peyvəndi eynilə insana tətbiq olunacaq şəkildə fərqli dozalarda və fərqli intervallarla tətbiq ediblər. Müvafiq anticismlərin əmələ gəlməsi burda da müşahidə edilib. Sonra meymunlar narkoz altında çox böyük virusyükü ilə COVID-19-a yoluxdurulub. Qeyd edim ki, insan həmin virus yükündən dəfələrlə azı ilə virusa yoluxur. Nəticədə peyvəndi fərqli dozalarda alan meymunların hamısında, hətta böyük virus yükü ilə yoluxanlarda belə COVID-19-a qarşı güclü müdafiə müşahidə edilib. Sonra meymunların ağciyərləri də daxil olmaqla bütün orqanları ciddi müayinədən keçirilib və ağciyərlərin qorunması müşahidə edilib. Yüksək dozalı peyvəndi alan meymunların ağciyərlərində heç bir virus tapılmayıb, az dozalı peyvənd alan meymunların ağciyərlərində isə çox cüzi virus aşkarlanıb. İmmunhüceyrələrdə aparılan müvafiq testlərlə də immun reaksiyanın patoloji güclənməsi və ya onun fonunda olacaq ağırlaşmalar inkar olunub. Bu, əvvəlki eyni üsulla hazırlanmış koronavirus peyvəndlərində mümkün olmurdu".

N.Abdullayev qeyd edib ki, virusun dünyadakı bütün mutasiya olunmuş növlərinə bu peyvəndin təsir gücü yoxlanılıb. Nəticə pozitiv çıxıb - bu peyvənd bütün növ COVID-19 viruslarına təsir edir.

Maraqlıdır, Pekində aparılan bu tədqiqatın yekunları bəşəriyyətə və elmə nə vəd edir? Dünyada tüğyan edən COVID-19 pandemiyasının qarşısının alınmasında hansı rolu oynayacaq?

Nuran Abdullayevin sözlərinə görə, hazırlanması və istehsalı dəfələrlə sadə olan bu peyvəndin insanlar üzərində də tətbiqi önümüzdəki günlərdə başa çatacaq: "Müsbət təsirin sübut olunacağı ehtimalı çox böyükdür. Belə olsa, qısa müddətdə bütün dünyada bu nəticənin tətbiqinə başlanılacaq. Bununla da bəşəriyyəti COVID-19 pandemiyasından qurtaracaq ilk peyvənd növü kimi tarixə düşəcək".

Bəli, müxtəlif ölkələrdə koronavirus əleyhinə peyvənd hazırlamaq üçün çalışmalar aparılır. Bunlardan hansı sınaqdan üzüağ çıxacaq, deyə bilmərik. Əsas odur ki, insanların canını almağa davam edən bu gözəgörünməz virusa qalib gəlməyin çarəsi tapılsın. Ümid edək ki, tezliklə bəşəriyyətin intizarına son qoyulacaq və tibb aləmindən xoş müjdə alacağıq - "Koronavirusun peyvəndi tapıldı!"

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# Bank sektorundan pandemiyadan zərər çəkən hüquqi və fiziki şəxslərə dəstək

*Əvvəli 1-ci səh.*

Prezident İlham Əliyev hələ martın 19-da "Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" sərəncam imzalamışdır.

Sözügedən sərəncamın 10.2-ci bəndinin icrası ilə bağlı Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş "Tədbirlər Planı"nın "Karantin rejimi müddətində pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarların öhdəliklərinin tənzimlənməsi məqsədilə kredit təşkilatlarına requlyativ təətilin verilməsi" tədbirinin icrası çərçivəsində Azərbaycan Mərkəzi Bankı Maliyyə Sabitliyi Şurasının tövsiyələrini nəzərə almaqla müvafiq qərar qəbul edib. Qərar Nazirlər Kabinetinin sərəncamında nəzərdə tutulan müvafiq tədbirlərlə sinxronlaşdırılmaqla bərabər, eyni zamanda, daha geniş istiqamətləri, o cümlədən fiziki şəxslərin İpoteka və Kredit Zəmanət Fondunun vəsaitləri hesabına verilmiş ipoteka kreditlərinin, eləcə də dövlət fondlarının vəsaitləri hesabına verilmiş biznes təyinatlı kreditlərin restrukturizasiyasını, həmçinin sığorta və kapital bazarı iştirakçılarının dəstəklənməsini əhatə edən məsələləri də nəzərdə tutur.

Pandemiyanın sahibkarların fəaliyyətinə göstərdiyi mənfi təsir də şübhəsizdir. Ona görə də dövlətin onları dəstəkləməsi mühüm əhəmiyyət daşıyır. Bu istiqamətdə İqtisadiyyat Nazirliyinin müəyyən etdiyi iqtisadiyyatın pandemiyadan təsirlənmiş sahələrində fəaliyyət göstərən özəl biznes subyektlərinə, o cümlədən sahibkarlıqla məşğul olan fiziki şəxslərə kredit təşkilatları tərəfindən verilmiş, cari il martın 1-i tarixinə keyfiyyəti qənaətbəxş olan və kredit faizləri dövlət tərəfindən subsidiyalaşdırılacaq kreditlərin restrukturizasiyasına imkan yaradılacaq. Banklar tərəfindən sahibkarların müraciəti və qarşılıqlı razılaşma əsasında bu kreditlərin müddəti artırıla bilər. Bu halda borcalanın maliyyə vəziyyətindən və kreditin restrukturizasiya edilməsindən asılı olmayaraq kreditin keyfiyyəti cari ilin sentyabrın 30-dək pisləşdirilməyəcək.

Eyni zamanda bu il martın 1-i tarixinə keyfiyyəti qənaətbəxş olan və dövlət fondlarının vəsaitləri hesabına verilmiş biznes təyinatlı kreditlərin restrukturizasiya imkanlarının yaradılması nəzərdə tutulur. Bu tədbir nəticəsində Sahibkarlığın İnkişafı Fondunun vəsaitləri hesabına verilmiş 1 milyard manat həcmində biznes kreditləri üzrə 10 minə yaxın iş adamının güzəştlərdən faydalanması üçün imkan yaranacaq.

Sahibkarlıq fəaliyyəti ilə məşğul olmayan fiziki şəxslərin dəstəklənməsi istiqamətində İpoteka və Kredit Zəmanət Fondunun vəsaitləri hesabına verilmiş ipoteka kreditlərinin restrukturizasiya imkanları yaradılacaq. Bu tədbir nəticəsində 1,1 milyard manat həcmində ipoteka krediti üzrə 23 minə yaxın sayda borcalan faydalana biləcək. Kreditlər borcalanların müraciəti əsasında restrukturizasiya olunacaq. Bu il martın 1-i tarixinədək verilmiş və keyfiyyəti qənaətbəxş olan belə kreditlərin restrukturizasiyası sentyabrın 30-dək həyata keçirildiyi halda onların keyfiyyəti pisləşdirilməyəcək.

Eyni zamanda bankların öz vəsaitləri hesabına ipoteka kreditləşməsini stimullaşdırmaq məqsədilə bu kateqoriyadan olan kreditlər üzrə risk dərəcələrinin 100 faizdən 50 faizədək azaldılması barədə qərar qəbul edilib.

Biznes və istehlak təyinatlı kreditlərin (əsas və ya faiz borcu) tam və ya qismən gecikdirilməsi halında 2020-ci il sentyabrın 30-dək borcludan cərimə faizi, dəbbə pulu və digər ödənişlərin tutulmaması kredit təşkilatlarına tövsiyə ediləcək və bu zaman borcalanların kredit tarixçəsi pisləşdirilməyəcək. Bu müddət ərzində kredit təşkilatları tərəfindən əsas borc üzrə faizlərin hesablanması davam etdiriləcək və borcalanlar tərəfindən kredit təşkilatlarına ödənilməsi təmin edilməlidir.

Qeyd olunan tədbirlərin həyata keçirilməsinə şərait yaratmaq, biznes və əhaliyə maliyyə xidmətlərinin davamlılığını təmin etmək, kreditləşdirmə imkanlarının artırılması üçün banklara əvvəlki dövrlərdə toplanmış dayanıqlıq yastığından istifadə etməyə imkan yaradılması məqsədilə requlyativ yükün azaldılması istiqamətində tədbirlər nəzərdə tutulur.

Bu məqsədlə banklar üzrə məcmu kapital tələblərinin ilin sonunadək bir faiz azaldılması nəzərdə tutulur. Eyni zamanda bankların kapitalına təzyiq yaradan bir sıra digər tənzimləyici tələblər də ilin sonunadək təxirə salınacaq.

Bəzi iqtisadi sahələrin kredit resurslarına çıxış imkanlarının artırılması istiqamətində tibbi ləvazimat və avadanlıqlar istehsalçılarına verilən kreditlərin risk səviyyəsi 100 faizdən 20 faizə qədər azaldılacaq. Beləliklə bu sahəyə banklar tərəfindən daha ucuz və daha az kapital sərf etməklə kredit ayırmağa imkan yaradılacaq.

İqtisadi aktivliyin azalması, biznes və ev təsərrüfatlarının gəlirlərinin aşağı düşməsinin ödəniş xidmətlərindən istifadə göstəricilərinə mənfi təsir etməsini nəzərə alaraq nağdsız ödəniş xidmətlərinin stimullaşdırılması və xərclərin azaldılması məqsədilə bu il sentyabrın 30-dək banklararası ödəniş sistemlərində banklardan tutulan xidmət haqlarının 50 faizə qədər endirilməsi və bank müştərilərinə göstərilən ödəniş xidmətləri üzrə tariflərin analoji qaydada azaldılması, eləcə də sahibkarların ödəniş kartlarının qəbulu üzrə tariflərinin 50 faizə qədər endirilməsi tədbirləri nəzərdə tutulur.

Pandemiya şəraitində iqtisadi aktivliyin azalması sığorta bazarında sığorta haqlarının həcminə də mənfi təsir etməkdədir. Digər tərəfdən sığorta olunanlarla sığortaçılar arasında fiziki təmasın minimuma enməsi sığorta xidmətlərinə çıxışın məhdudlaşmasına gətirib çıxarır. Bunu nəzərə alaraq, sığorta xidmətlərinin fasiləsizliyinin təmin edilməsi və sığorta olunanların hüquqlarının qorunması istiqamətində də tədbirlər nəzərdə tutulur.

Könüllü sığorta müqavilələri üzrə karantin rejimindən birbaşa təsirlənən sığortalılara sığorta haqlarının ödənilməsində bu il sentyabrın 30-u tarixinə kimi möhlət verilməsi, habelə sığorta xidmətlərinin elektron vasitələrdən effektiv istifadə etməklə göstərilməsi sığortaçılara tövsiyə edilib.

Karantin rejimindən birbaşa təsirlənən sığortalılar üzrə sığorta haqlarının ödənilməsində veriləcək möhlətlərlə bağlı olaraq sığorta şirkətlərinə münasibətdə ilin sonunadək müvafiq requlyativ yumşalmalar tətbiq ediləcək.

Mərkəzi Bank tərəfindən koronavirus pandemiyasının kapital bazarı iştirakçılarına yaranmış vəziyyətin mənfi təsirinin azaldılması istiqamətində də tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

Bu məqsədlə investisiya şirkətlərinin kapital tələblərinin pozulması müşahidə edildikdə təsir tədbirlərin görülməsi gələn il yanvarın 1-dək, investisiya şirkətləri və fond birjası tərəfindən illik audit hesabatların açıqlanması isə bu il sentyabrın 30-dək uzadılacaq. Bununla yanaşı, qiymətli kağızları kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış emitentlər tərəfindən hesabatların açıqlanması da bir ay müddətinə uzadılmışdır.

Eyni zamanda Milli Depozit Mərkəzinə səhm və istiqrazlarla təkrar bazarda bağlanan əqdlər, habelə repo əməliyyatlarının qeydiyyatı üzrə tariflərin bu il sentyabrın 30-dək investorlardan tutulmaması, Bakı Fond Birjasına isə emitentlərdən korporativ istiqrazlar üzrə listinq tariflərini 2021-ci il yanvarın 1-dək tutulmaması və qiymətli kağızların kütləvi təklif üsulu ilə yerləşdirilməsi zamanı tələb olunan sənədlərin sayının minimallaşdırılması tövsiyə edilib.

Bu tədbirlər kapital bazarı iştirakçılarının requlyativ yükünü yüngülləşdirməklə investorun tranzaksiya xərclərinin optimallaşdırılmasını və dövlət qiymətli kağızlar bazarında təkrar bazar əməliyyatlarının daha çevik aparılmasını təmin edəcək.

Bütövlükdə nəzərdə tutulan tədbirlər pandemiya şəraitində biznesə və əhaliyə göstərilən maliyyə xidmətlərinin fasiləsizliyinin təmin olunmasına, iqtisadiyyatın kreditləşməsinin davam etdirilməsinə, maliyyə xidmətlərinin istehlakçılarının hüquqlarının qorunmasına şərait yaradacaq. Bütün bunlar da nəticə etibarı ilə pandemiyanın mənfi təsirlərinin tez aradan qaldırılmasına, ölkə iqtisadiyyatının davamlı inkişafına xidmət edir.

***Flora SADIQLI, "Azərbaycan"***

## "COVID-19 üzrə potensialın artırılması proqramı" çərçivəsində onlayn təlimlər keçiriləcək

Səhiyyə sahəsində çalışan mütəxəssislər üçün Hindistan Xarici İşlər Nazirliyinin Hindistan İqtisadi və Texniki Əməkdaşlıq Proqramı (ITEC) çərçivəsində "COVID-19-un idarə olunması strategiyaları və əlaqəli aspektlər" mövzusu üzrə onlayn təlimlər keçiriləcək.

Səhiyyə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, "COVID-19 üzrə potensialın artırılması proqramı" çərçivəsində keçiriləcək canlı vebinarlar Çandiqarxda yerləşən Aspirantura Tibbi Təhsil və Araşdırma İnstitutu tərəfindən aparılacaq.

COVID-19 pandemiyasının idarə olunmasına aid ən vacib məsələlər üzrə e-ITEC interaktiv vebinar sessiyaları müddətində COVID-19 nədir, infeksiyanın qarşısının alınması tədbirləri, COVID-19 xəstələrinin müəyyən edilməsi üsulları, onların təmasda olduğu şəxslərin müəyyənləşdirilməsi, sahə nəzarəti və ictimai səhiyyə tədbirləri, həmçinin digər mövcud məsələlər əhatə ediləcək.

Altı gün davam edəcək onlayn təlimlərdə Azərbaycan Respublikası da daxil olmaqla, müxtəlif ölkələrin səhiyyə işçiləri, tibb mütəxəssisləri iştirak edəcəklər.

## Pandemiya ilə əlaqədar sosial dəstək tədbirləri 4,8 milyondan çox vətəndaşı və ya əhalinin 48 faizini əhatə edir

Prezident İlham Əliyevin siyasətinin mərkəzində vətəndaş amilinin dayanması pandemiya dövründə məşğulluğa və sosial rifaha dəstək yönümündə genişmiqyaslı tədbirlərlə bir daha təsdiqini tapır.

Dövlətin indiki çətin dövrdə də öz vətəndaşının yanında olduğunun bariz nümunəsi olan bu tədbirlər ilk növbədə dövlət və özəl sektorda muzdla çalışan 1 milyon 640 minədək işçinin iş yerlərinin və əməkhaqqı gəlirlərinin qorunmasına imkan verdi.

Sosial ödənişlərin davamlılığı təmin edilməklə, əsasən həssas qruplardan olan 2 milyon vətəndaşa sosial təminat növləri (pensiya, təqaüd, müavinət) üzrə ödənişlərin davamlılığı təmin edildi.

600 minədək aztəminatlı işsiz şəxsi əhatə edən birdəfəlik ödəmə proqramına, məşğulluq imkanlarının artırılması üçün 90 minədək şəxsin ödənişli ictimai işlərə cəlb olunmasına, özünüməşğulluq proqramı çərçivəsində minimum 12 min ailə kiçik təsərrüfatların qurulmasına başlandı.

82 min ailənin 340 minədək üzvü ünvanlı dövlət sosial yardımı ilə, 20 minədək şəxsin işsizlikdən sığorta ödənişi, 100 minədək aztəminatlı ailənin ərzaq yardımı ilə təminatı işləri aparılır.

Beləliklə, pandemiya ilə əlaqədar təkcə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həyata keçirilən dəstək tədbirləri 4,8 milyondan çox vətəndaşı və ya ölkə əhalisinin 48 faizini əhatə edir.

***"Azərbaycan"***

## Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində atəşkəs rejimini 24 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 24 dəfə pozub. Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli, Zamanlı kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Yusifcanlı, Füzuli rayonunun Horadiz kəndləri yaxınlığında, həmçinin Tərtər rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

# Beynəlxalq aləm

## Hillari Klinton prezident seçkilərində Baydeni dəstəkləyəcək



ABŞ prezidentliyinə keçmiş namizəd, sabiq dövlət katibi Hillari Klinton bu il keçiriləcək prezident seçkilərində Demokratlar Partiyasından namizəd Co Baydeni dəstəkləyəcək. Bu barədə "Röyter" agentliyi xəbər verir.

Klinton dəstəyini koronavirus böhranının qadınlara təsirinə həsr olunmuş açıq onlayn görüşdə ifadə etmişdir. O qeyd etmişdir ki, seçkiqabağı təşviqat kampaniyasının gedişində ortaya çıxacaq problemlərin həllində Baydenin yardımçısı olacaq.

Bundan əvvəl ABŞ prezidentliyinə potensial namizədlərdən biri, senator Berni Sanders Baydeni dəstəklədiyini bəyan etmiş və demokratları onun ətrafında birləşməyə çağırmışdır. Keçmiş vitse-prezidentə ABŞ-ın sabiq prezidenti Barak Obama da dəstək vermişdir.

"Forbes" jurnalının xəbərinə görə, Bayden reytinqdə hazırkı Prezidenti üstələyir: amerikalıların yarıdan çoxu demokrat namizədə səs verməyə hazırdır.

## Çexiya Rusiya səfirini qovmaqdan vaz keçdi



Rusiya ilə münasibətlərdə yaranmış gərgin vəziyyət Rusiya səfirinin Çexiyadan qovulmasını tələb etmir. Bu bəyanatla Baş Nazir Andrey Babiş çıxış etmişdir.

Babiş qeyd etmişdir ki, "biz suveren dövlətik və ona görə də böyük dövlətlərin siyasi işlərimizə hər hansı şəkildə təsir göstərməsinə imkan vermərik". O əlavə etmişdir ki, "başqa bir dövlətin ölkəmizdə vətəndaşlara qarşı tədbirlər görməsi" qəbuledilməzdir.

Xatırladaq ki, aprelin 22-də Çexiyanın "Respekt" qəzeti üç həftə əvvəl Rusiya kəşfiyyatı əməkdaşının diplomat sifəti ilə Çexiyaya zəhər gətirdiyini xəbər vermişdi. Qəzet iddia edirdi ki, rusiyalı kəşfiyyatçı ölkəyə Praqa şəhərinin 6-cı rayonunun administrasiyasının rəhbəri Ondrjey Kolarj və Çexiya paytaxtının meri Zdenek Qrjibi zəhərləmək məqsədilə gəlmişdi. Kolarj marşal Konevin abidəsinin sökülməsinin təşkilatçısıdır.

Rusiya Xarici İşlər nazirliyi bu ittihamı rədd etmişdir. Sovet İttifaqı Marşalı İvan Konevin Praqanın 6-cı rayonundakı abidəsi aprelin 3-də yerli hakimiyyət orqanlarının qərarı ilə sökülmüşdür.

## Çində daxili turizm bərpa olunur



Çində koronavirus pandemiyasından sonra daxili turizmin bərpası başlamışdır. Bu barədə ölkənin ən böyük turizm şirkəti olan "Ctrip" məlumat vermişdir.

Məlumatda deyilir ki, ölkədə kiçik turist qrupları səyahət etməyə başlamışdır. 1600-dən çox populyar turizm məkanı açılmış, bir çox attraksionlar işini bərpa etmişdir.

Qeyd olunur ki, Çin xalqı yaxın vaxtlarda səyahət etməyin mümkünlüyünə maraq göstərir. Şirkət turizm sektorunun böhrandan sonra tezliklə bərpa olunacağını, oktyabrda isə əvvəlki səviyyəsinə qayıdacağını gözləyir.

## Trüdo: "Kanada pandemiya böhranının yarısını keçib"

Kanada hazırda koronavirus pandemiyasının doğurduğu böhrandan çıxışın yarı yolundadır, lakin bütün məhdudiyyətləri ləğv etmək hələ tezdir. Bu barədə Baş Nazir Jastin Trüdo məlumat vermişdir.

Hökumətin başçısı qeyd etmişdir ki, "gördüyümüz tədbirlər işləyir, amma təhlükə hələ sovuşmamışdır, Kanada tarixində millətin sağlamlığına təsir göstərən ən ciddi böhranın ortasındadır". Trüdo vurğulamışdır ki, pandemiya üzündən tətbiq olunmuş məhdudiyyətlərin kəskin şəkildə ləğv olunması indiyədək əldə edilmiş nəticələrin itirilməsinə gətirib çıxara bilər. Baş Nazir xəbərdarlıq etmişdir ki, "ehtiyatlı olmalıyıq".

Kanadada koronavirus infeksiyasına ilk yoluxma faktı yanvarın 15-də qeydə alınmışdır. Bu günə qədər ölkədə 50026 nəfər infeksiyaya yoluxmuş, 19231 nəfər sağalmış, 2859 nəfər vəfat etmişdir.

## Yəməndə 17 milyondan çox sakin su korluğu çəkir

Yəməndə 17 milyondan çox sakinin su və müasir sanitar-kanalizasiya xidmətlərindən istifadə etmək imkanı yoxdur. Bu barədə Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK) məlumat vermişdir.

BQXK qeyd etmişdir ki, yeni tip koronavirus pandemiyasının davam etdiyi şəraitdə əhalinin içməli su ilə təmin edilməsi birinci dərəcəli əhəmiyyət kəsb edir.

Ötən bazar ertəsi Yəmən Səhiyyə Nazirliyi bəyan etmişdir ki, ölkədə koronavirusa yoluxmuş yeganə xəstə sağalıb evə buraxılmışdır. Nazirlik əlavə etmişdir ki, koronavirusa yeni yoluxma halları qeydə alınmamışdır.

Bundan əvvəl BMT-nin Humanitar Yardımın Əlaqələndirilməsi İdarəsi məlumat vermişdi ki, ola bilsin, Yəməndə yeni tip koronavirus yayılmış, amma hələ aşkarlanmamışdır.

## Hərbi Dəniz Qüvvələrində keçirilən taktiki təlim başa çatıb

Müdafiə nazirinin təsdiq etdiyi 2020-ci ilin döyüş hazırlığı planına əsasən Hərbi Dəniz Qüvvələrində (HDQ) keçirilən taktiki təlim başa çatıb.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Xəzər dənizinin əməliyyat zonasında enerji infrastrukturunun mühafizəsi, gəmi taktiki qruplarının qarşılıqlı fəaliyyətdə döyüş əməliyyatlarının planlaşdırılması və aparılması, həmçinin komandirlər, qərargahlar və şəxsi heyətin bacarıqlarının təkmilləşdirilməsi məqsədilə keçirilən təlimdə yüksək peşəkarlıq nümayiş etdirilib.

Üç mərhələdən ibarət təlimin birinci mərhələsində verilmiş siqnala əsasən birləşmə və hərbi hissələrin xəbərdar edilməsi, sualtı diversiya əleyhinə qüvvə və vasitələrin döyüşə hazırolma vəziyyətinə gətirilməsi tədbirləri icra edilib. İkinci mərhələdə siqnala əsasən sualtı diversiya əleyhinə qüvvələrin əməliyyat rayonlarında açılması və sualtı diversiya əleyhinə müdafiə tapşırıqları, həmçinin neft-qaz infrastrukturunun mühafizəsi əməliyyatları yerinə yetirilib. Üçüncü mərhələdə döyüş atışları icra olunduqdan sonra gəmilər dislokasiya məntəqələrinə qayıdıb.

Təlimə 20-dən artıq gəmi və kater, 2 helikopter, o cümlədən 700 nəfərədək şəxsi heyət cəlb olunub.

## *Müdafiə Nazirliyi:* "Ermənistan mətbuatında Azərbaycan tərəfinin minaatanlardan istifadə etməklə atəşkəs rejimini pozması barədə yayılan xəbər yalandır"

Ermənistan kütləvi informasiya vasitələrində guya Azərbaycan tərəfinin minaatanlardan istifadə etməklə atəşkəs rejimini pozması barədə yayılan xəbər yalandır, həqiqəti əks etdirmir.

Bunu AZƏRTAC-ın sorğusuna cavab olaraq Müdafiə Nazirliyinin Mətbuat xidmətindən bildiriblər.

Belə ki, Ermənistan tərəfinin iddiasının əksinə olaraq bu gün gündüz saatlarında düşmən ordusunun bölmələri atəşkəs rejimini kobud şəkildə pozaraq mövqelərimizi atəşə tutub.

Azərbaycan Ordusunun bölmələri 82 millimetrlik minaatanlardan istifadə etməklə cavab atəşi ilə düşmənin atəş nöqtələrini susdurub.

# *Ermənilər həyəcan təbili çalırlar:* "Yerevan Qarabağ məsələsində Azərbaycana müqavimət imkanını itirib"

## Regiondakı geosiyasi durum Ermənistanın işğal siyasətini dalana dirəyib

*Əvvəli 1-ci səh.*

Şübhəsiz, Rusiya Ermənistanın siyasəti ilə barışmaq istəmir.

Elə erməni politoloq Ara Vardanyan da eyni mövqe sərgiləyir. Onun sözlərinə görə, Ermənistan hakimiyyəti reallığı təhrif etməyə çalışdığı bir vaxtda Azərbaycan zəbt edilmiş ərazilərin geri qaytarılması istiqamətində əməli addımlar atır: "Ermənistan hakimiyyəti danışıqların mövcud kağızının dağıdıcı təsirini bildiyi üçün təxminən 2 il ucuz formalarla xalqı aldadırdı ki, Qarabağ məsələsində hansısa sənəd danışılmır".

O, qeyd edib ki, lakin Rusiya xarici işlər naziri öz "sülh" qətnaməsini açıqladı: "O, biz müxalifətçilərin təxminən iki ildir danışdığımızı söylədi. Şübhəm yoxdur ki, hakimiyyəti zəbt etmiş "sülh" partiyası çox tezliklə siyasi ataları olan Levon Ter-Petrosyanın vaxtilə yaşadığı eyni aqibəti yaşayacaq".

Ermənistanın eks-prezidenti Serj Sarkisyan da məsələyə münasibətini açıqlayaraq bildirib ki, "mərhələli həll" Ermənistan üçün dağıdıcı nəticələrə gətirib çıxara bilər: "2008-2018-ci illərdə mən və xarici işlər naziri Edvard Nalbandyan Qarabağ konfliktinin mərhələli həllini müzakirə etməmişik. Mərhələli həll variantının təhlükəsi ondan ibarətdir ki, hansısa məqamda tərəflərdən biri öz gözləntilərini əldə edə və prosesi davam etdirməyə bilər. Bu variant erməni tərəfi üçün həyati əhəmiyyət daşıyan "Qarabağ xalqı"nın öz müqəddəratını təyinetmə haqqını reallaşdırmaya bilər. Əgər əvvəllər periodik olaraq paket həllin mərhələli reallaşdırılmasından söhbət gedirdisə, bu gün Moskvadakı "dəyirmi masa"da Sergey Lavrov çox dəqiq və birmənalı bəyanat verdi. Bu gün Ermənistan Xarici İşlər Nazirliyinin rəhbəri rusiyalı həmkarının yeni layihə haqqında bəyanatını təkzib etmədi".

Ermənistan parlamentinin keçmiş deputatı, "Daşnaksütyun" partiyasının funksioneri Lilit Qalstyan isə hesab edir ki, istənilən halda Yerevan Qarabağ məsələsində Azərbaycan və digər beynəlxalq güclərə müqavimət imkanını itirib: "Ermənistan ətrafındakı halqa daralır, hökumət isə daxili düşmənləri modelləşdirmək üçün uzaqgörən olmayan göstərişlə məşğuldur".

Qalstyan qeyd edib ki, Lavrovun səmimiliyi ona təsəlli vermir, bu, Ermənistan üçün acı olsa da gözlənilən idi: "Siyasət soyuq hesablamanı sevir, maraqlar, institusional yaddaş, hörmət və irs üzərində qurulur. Siyasət elmdir: burada demək olar ki, mikrocərrahiyyə kimi hər bir incəlik, detal vacib və həlledicidir. Amma Nikol Paşinyan iqtidarı hələ də bunu anlaya bilmir və bu gedişlə Qarabağ Azərbaycanın tərkibinə qayıdır".

Erməni politoloq Suren Sarkisyan isə vurğulayır ki, Sergey Lavrovun bəyanatı Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin onlayn görüşündən əvvəl oldu və əslində bu bəyanatla baş tutan danışıqlar prosesinə işıq saldı. Onun sözlərinə görə, Rusiya tərəfi faktiki olaraq oyun kartlarını açdı və tərəflərin mərhələli variant ətrafında danışıqlar apardığını təqdim etdi: "Mərhələli variantın öz təhlükələri var, çünki problemi mərhələ-mərhələ həll edəndə əvvəlcə bir şeyi güzəştə gedirsən, sonra bunun qarşılığında qeyri-müəyyən müddətlik nəsə alırsan". Sarkisyan qeyd edib ki, "mərhələli həll" variantı Ermənistan üçün əlverişsizdir. Amma Yerevanın bununla razılaşmaqdan savayı başqa çıxış yolu da yoxdur.

Ekspertlər də hesab edirlər ki, regionda geosiyasi durum, dünya miqyasında baş verənlər Ermənistanın işğal siyasətinin artıq dalana dirənməsinə gətirib çıxarır. Burada Rusiyanın prosesə yanaşması da mühüm rol oynayır. Digər tərəfdən bütün qapıların bağlandığı, siyasi və iqtisadi dəstəyin kəsiləcəyi vəziyyətdə Yerevanın regional əməkdaşlıq platformalarında yerini almaq, Azərbaycan və Türkiyə ilə sərhədlərin açılması, iqtisadi dəstək əldə etmək, bir sözlə, mövcud olmaq üçün yeganə çıxış yolu ərazilərin qaytarılmasıdır.

Burada Yerevan onu da nəzərə almağa məcburdur ki, ölkənin çətin vəziyyətdə olan iqtisadiyyatı koronavirus pandemiyasının yaratdığı çətinliklər fonunda daha ciddi zərbələr alır. Bu durumda erməni diasporundan gələn ianələrin kəsilməsi də əlavə problemlər yaradır. Bu səbəbdən Ermənistan işğal siyasətinə son qoymağa məcburdur.

***Elçin CƏFƏROV, "Azərbaycan"***

## "Azərsu" ASC daxili vəsaiti hesabına
## *açıq tender elan edir*

***"Azərsu" ASC-nin daxili vəsaiti hesabına açıq tender metodu tətbiq edilməklə elektron satınalma vasitəsilə "Azərsu" ASC-nin tabeliyində fəaliyyət göstərən laboratoriyalarında istifadə olunan cihazların əsaslı və cari təmir işlərinin satın alınması***

Malgöndərənlər (podratçılar) https://www.etender.gov.az-dövlət satınalmalarının vahid internet Portalından tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: Tender predmeti üzrə oxşar təcrübənin mövcudluğu (son 3 (üç) il üzrə mal-materialların təchizatı və həcmi üzrə icra edilmiş 2 (iki) müqavilə), iddiaçının cari və əsaslı təmir işlərini həyata keçirəcək mütəxəssislərinin bu sahə üzrə sertifikatlarının olması (minimum 2 (iki) mütəxəssislərinin sertifikatlarının olması) və ən aşağı qiymət təklifi.

Malgöndərənlər (podratçılar) aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalından əldə edə bilərlər.

**Tenderdə iştirak haqqı 200 manatdır.**
**Təşkilat: "Azərsu" ASC**
**VÖEN: 9900001751**
**Bank: "Kapital Bank"ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**S.W. İ. F. T. BIK: AİIBAZ2X**
**H/h: AZ65AİIB 33070019441100216111**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət (Tender komissiyasının adına);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *malgöndərənlərin (podratçıların) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayışı;*
- *malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **01 iyun 2020-ci il saat 16:00-a** qədər, tender təklifi və bank təminatını isə **09 iyun 2020-ci il saat 18:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər.

Elektron satınalmanın açılışı **10 iyun 2020-ci il saat 16:00-da** dövlət satınalmalarının vahid internet Portalında həyata keçiriləcəkdir.

***Tender komissiyası***

Təkrar

## "Azərsu" ASC daxili vəsaiti hesabına elektron satınalma vasitəsilə su nasos aqreqatlarının satın alınması məqsədilə
## *açıq tender elan edir*

**Su nasos aqreqatlarının satın alınması**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Moskva prospekti, 67, "Azərsu" ASC-nin Təchizat və satınalmaların idarə olunması departamentinin Satınalmaların təşkili şöbəsindən (əlaqələndirici şəxs: Ağaəli Mirzəyev, telefon: 431-47- 67/2246/49) ala bilərlər.

**İştirak haqqı 500 manatdır.**
**Təşkilat: "Azərsu" ASC**
**VÖEN: 9900001751**
**Bank: "Kapital Bank"ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**Müxbir hesab: AZ 37 NABZ 01350100000000001944**
**S.W. İ. F. T. BIK: AİIBAZ2X**
**H/h : AZ 65 AİIB 33070019441100216111**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət (Tender komissiyasının adına);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *son üç il ərzində icra edilmiş ən azı üç oxşar müqavilə;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **01 iyun 2020-ci il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərflərdə **10 iyun 2020-ci il saat 16:00-a qədər** Bakı şəhəri, Moskva prospekti, 67, "Azərsu" ASC-nin Təchizat və satınalmaların idarə olunması departamentinin Satınalmaların təşkili şöbəsinə təqdim etməlidirlər. Tələb olunan malların mənşə və uyğunluq sertifikatı təqdim olunmadığı halda iddiaçı tenderdən kənarlaşdırılacaq.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **11 iyun 2020-ci il saat 16:00-da** yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi
## *açıq tenderə dəvət edir*

Evdə sosial xidmətlər göstərən əməkdaşların xüsusiləşdirilmiş avadanlıqlarla təchizatı və göstərdikləri xidmət səviyyəsinin ölçülmə prosesinin avtomatlaşdırılması işlərinin satın alınması

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: LOT üzrə 200 (iki yüz) manat**

**Satınalan təşkilat: Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi**
**VÖEN: 1305817761**
**Bank: Azərbaycan Beynəlxalq Bankı ASC Yasamal filialı**
**Kod: 805562**
**Müxbir hesabı: AZ03NABZ01350100000000002944**
**VÖEN: 9900001881**
**SWIFT IBAZAZ2X**
**H/hesabı: AZ59IBAZ38090019446221732216**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təkliflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *tender iştirakçısının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 21.05.2020-ci il saat 16:00-a qədər və tender təklifi ilə bank təminatı sənədlərini 03.06.2020-ci il 16:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 04.06.2020-ci il saat 16:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

***QEYD:*** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərbaycan" qəzetinin 25 fevral 2020-ci il tarixli nömrəsində dərc edilmiş və dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə keçirilmiş Azərbaycan Respublikası Mərkəzi Bankının xəzinə infrastrukturunun fəaliyyətini təmin etmək məqsədilə elektrikli yükqaldıranlar üçün akkumulyatorların satın alınması ilə əlaqədar açıq tender üzrə Tender komissiyasının 17 aprel 2020-ci il tarixli qərarına əsasən "Safenerji" MMC qalib elan edilmişdir.

Qalib şirkətlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün mənzillərin satın alınması ilə bağlı keçirilmiş açıq tenderdə "Bakı-Mexanikləşdirmə-1" ASC, fiziki şəxs Emil Orucov və fiziki şəxs Məzahir Məmmədli qalib olmuşdur.

Qaliblərlə müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən dəftərxana mallarının satın alınması üçün keçirilən açıq tenderdə "A4 Plaza" MMC qalib olmuşdur.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

***"Mingəçevir Şəhər Mərkəzi Xəstəxanası" Publik Hüquqi Şəxsi 2020-ci ilin yarımilliyi üçün kotirovka sorğusu elan edir***

1. Nəqliyyat vasitələrinin əsaslı təmiri maddəsi üzrə
2. Camaşırxana avadanlıqlarının ehtiyat hissələrinin alınması və təmiri

Kotirovka sorğusu üzrə müraciətlər 08.04.2020-ci il saat 13:00-dək qəbul edilir.

Zərflərin açılması: 08.04.2020-ci il saat 14:00

**Ünvan: Mingəçevir şəhəri, 20 Yanvar küçəsi 12**

**Telefon: +994555004599 ; +994552041520**

***Tender komissiyası***

# Aprelin sonuncu günündə bəzi bölgələrdə 25 dərəcə isti olacaq

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, aprelin 30-da Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Səhər saatlarında zəif duman olacaq. Mülayim cənub-qərb küləyi əsəcək. Havanın temperaturu Abşeron yarımadasında gecə 10-13°, gündüz 16-19° isti, Bakıda gecə 10-12°, gündüz 17-19° isti olacaq. Atmosfer təzyiqi 766 millimetr civə sütunundan 761 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 70-80, gündüz 40-45 faiz təşkil edəcək.

Sinoptiklərin tibbi-meteoroloji proqnozuna görə, aprelin 30-da və mayın 1-də Bakıda və Abşeron yarımadasında meteoroloji amillərin mülayim tərəddüdü gözlənilir ki, bu da meteohəssas insanlar üçün əsasən əlverişlidir.

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə arabir yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər saatlarında duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 7-11°, gündüz 20-25° isti, dağlarda gecə 3-7°, gündüz 10-15° isti olacağı ehtimal edilir.

Naxçıvan Muxtar Respublikasında hava əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi dağlıq ərazilərdə şimşək çaxacağı, yağış yağacağı gözlənilir. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 7-12°, gündüz 20-25° isti olacaq.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, həmçinin Daşkəsən, Gədəbəy rayonlarında gün ərzində arabir yağış yağacağı gözlənilir. Şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər saatlarında duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 3-7°, gündüz 10-15° isti olacağı ehtimal edilir.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında hava əsasən yağmursuz keçəcək. Səhər saatlarında duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 7-11°, gündüz 19-24° isti olacağı proqnozlaşdırılır.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər saatlarında duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 6-10°, gündüz 15-20° isti, dağlarda gecə 0-5°, gündüz 10-15° isti olacağı bildirilir.

Mərkəzi Aran: Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 7-11°, gündüz 20-25° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı ehtimal edilir. Səhər dağlarda duman olacaq. Şimal-qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 7-12°, gündüz 16-21° isti, dağlarda gecə 4-7°, gündüz 9-14° isti olacağı ehtimalı var.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi və kollektivi iş yoldaşları Əjdər Cavadova əzizi

**CAVANŞİR AĞASƏF OĞLU NURİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Əməkdar elm xadimi, professor

**ABUZƏR XƏLƏFOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Tahir Budaqov AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, Azərbaycan Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutunun direktoru

**ƏLİŞİR MUSAYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Bakı Slavyan Universitetinin rektoru, Həmkarlar İttifaqı Komitəsi, professor-müəllim heyəti Bakı Dövlət Universitetinin professoru

**ABUZƏR XƏLƏFOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Sumqayıtdan Zakir Fərəcov Əməkdar elm xadimi, professor

**ABUZƏR XƏLƏFOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikasının Belarusdakı səfiri Lətif Qəndilov və səfirliyin əməkdaşları görkəmli alim və pedaqoq, professor

**ABUZƏR XƏLƏFOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentliyin rəhbərliyi və kollektivi Əməkdar elm xadimi, professor

**ABUZƏR XƏLƏFOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 7406
Sifariş 931
Qiyməti 40 qəpik